

Turizm mövsümü başlayıb: Xarici və yerli turistləri cəlb etmək üçün nə çatışmır?

15

# Azərbaycan-Türkiyə: qalibiyyətə hesablanmış geostrategiya və vahid liderlik faktoru

3



Səs
№ 92 (6533) 26 may 2022-ci il. Qiymıəti 60 qəpik

*Qardaş Türkiyənin sabiq baş naziri Binəli Yıldırım Türkiyə ilə Azərbaycan arasında olan müttəfiqlik münasibətlərini şərh edərkən maraqlı bir tarixçəni xatırladıb. "Vaxtilə Əbülfəz Elçibəy dörd vertolyot istədi, Türkiyə onları verə bilmədi.*




# Ukraynadakı müharibə nə vaxt və kimin xeyrinə başa çatacaq?

13



***Bu ilin fevral ayının 24-dən başlayaraq Rusiyanın Ukraynada hərbi əməliyyatlara başlaması cari ilin sonuna qədər davam edə bilər. SİA-nın məlumatına ki, bununla bağlı "RBK-Ukraina" Ukraynanın Müdafiə Nazirliyinin Baş kəşfiyyat idarəsinin rəhbəri Kiril Budanova istinadən informasiya yayıb. "Dediyim kimi, aktiv faza ilin sonuna kimi maksimal düşüşə doğru azalacaq. Rusiyanın 12 ay müddətində normal müharibə aparması üçün resursları yoxdur", deyən Budanov müharibənin yeganə halda başa çatacağını bildirib:***

## Səlcuq Bayraqdar: "TEKNOFEST" Ukrayna, İndoneziya, Özbəkistan kimi ölkələrdə də keçiriləcək



4

## Şərəfli ada ləkə gətirmək istəyənlər: "saxta qazilər"



5

## Narkotacirlər məktəbə necə ayaq açıb?



8

## Betonlaşan şəhər

Bakı şəhərindən danışmaq istəyirəm. Gözəllər gözəli bu şəhərdən. Günü-gündən hüsnünə min naxış vurulan, qədimliyi ilə müasirliyi harmoniya yaradan şəhərdən...



9

## Azərbaycana hansı məhsulların gətirilməsi mümkün deyil?



## Həkim açıqladı: Mobil telefonlar bu xəstəliklərə yol açır!

16



*Mobil telefonlar həyatımızın ayrılmaz aksesuarına çevrilsə də, mütəxəssislər onunla ehtiyatlı davranmağa çağırırlar. Aparılan tədqiqatlar nəticəsində...*




## "Zəngəzur dəhlizi", yoxsa nə?

6

*İki gün öncə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığında bildirib ki, mayın 22-də Brüsseldə tərəflər...*



## Laportadan Messi və Neymar üçün şok açıqlama!

*Barselona"nın prezidenti Joan Laporta klubun hazırda PSJ-də çıxış edən sabiq futbolçusu Neymar haqqında danışıb. Qol.az xəbər verir ki, funksioner braziliyalı forvardın oyununu bəyəndiyini deyib. Lakin Laporta PSJ-də oynamağı köləliklə müqayisə edib.*

16

# "Avropa İttifaqı Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasında vacib rol oynayır"

***Prezident İlham Əliyev mayın 25-də Estoniya Respublikası parlamentinin sədri Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



*Prezident İlham Əliyev Estoniya parlamenti sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

Dövlətimizin başçısı Azərbaycanla Estoniya arasında ikitərəfli münasibətlərin gələcəkdə də uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirərək qarşılıqlı təmasların önəmini qeyd etdi və bu baxımdan Azərbaycan parlamenti sədrinin Estoniyaya, Estoniya parlamenti sədrinin isə ölkəmizə səfərinin həm ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əməkdaşlığın genişlənməsinə töhfə verdiyini bildirdi.

Prezident İlham Əliyev Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya səfərinə toxunaraq bu səfərin ermənilərin həmin ərazilərdə işğal dövründə törətdikləri genişmiqyaslı dağıntıları öz gözləri ilə görmələri baxımından çox önəmli olduğunu vurğuladı.

Avropa İttifaqı-Azərbaycan əlaqələrinə toxunan dövlətimizin başçısı Brüsselə son səfərinin nəticələrini çox müsbət qiymətləndirdi və səfər zamanı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin bəyanatını qeyd edərək, Avropa İttifaqının Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasında vacib rol oynadığını bildirdi. Dövlətimizin başçısı Avropa İttifaqı ilə əlaqələrin ölkəmiz üçün önəmini qeyd edərək, bu əlaqələrin çoxşaxəli olduğunu və ənənəvi enerji sahəsindən əlavə digər istiqamətləri də əhatə etdiyini dedi və qeyd etdi ki, ölkəmizdə yaradılan müasir nəqliyyat infrastrukturu və Azərbaycanın Xəzəryanı dövlətlər, eləcə də Qərb istiqaməti üzrə bağlantıları Avropa ilə Asiya arasında qarşılıqlı əlaqədə çox mühüm rol oynayacaq.

Estoniya parlamentinin sədri Yuri Ratas, ilk növbədə, 28 May - Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevi və xalqımızı təbrik etdi, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunmasının önəmini vurğuladı. Yuri Ratas Bakıya səfəri zamanı səmərəli və məhsuldar görüşlər keçirdiyini diqqətə çatdırdı. Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Şərtləri və Qaydası"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Latviya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Fərman imzalayıb.

# "Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi islahatlar nəticəsində siyasi partiyaların fəaliyyəti üçün geniş zəmin yaradılıb"

*Prezident Administrasiyasında Gələcək Azərbaycan Partiyasının sədri ilə görüş keçirilib*



***Mayın 25-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ilə Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu arasında görüş keçirilib.***

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə şöbə müdiri ölkəmizdə siyasi dialoq mədəniyyətinin və cəmiyyətin inkişafı naminə həyata keçirilən iqtidar-müxalifət əməkdaşlığının keçmişi, bu günü və perspektivlərindən söz açıb, siyasi tariximizin zənginləşməsində, dövlətçiliyimizin möhkəmlənməsində siyasi partiyaların rolunun önəmli olduğu, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi islahatlar nəticəsində siyasi partiyaların fəaliyyəti üçün geniş zəmin yaradıldığı, həmçinin siyasi partiyaların qərargahla təmin olunması, qurultaylarının nəticələrinin dövlət qeydiyyatına alınması, fəaliyyətlərinin legitimləşdirilməsi, ölkədə fəaliyyət göstərən dövlət və özəl media resurslarına maneəsiz çıxış imkanlarının yaradılması, ölkədə milli və siyasi həmrəyliyin təmin olunması, yeni siyasi partiyaların dövlət qeydiyyatına alınması və digər məsələlər yeni siyasi konfiqurasiyanın əsas konturları kimi qeyd olunub. Şöbə müdiri, həmçinin əksər siyasi partiyaların sağlam iqtidar-müxalifət dialoqunun və çoxpartiyalı siyasi sistemin inkişafına öz töhfəsini verdiklərini qeyd edib.

Prezident İlham Əliyevin "indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq olmadan həyata keçirilə bilməz...Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır" fikirlərinin real nəticələr verdiyinə diqqət çəkən Ədalət Vəliyev bu prosesdə Gələcək Azərbaycan Partiyasının fəal iştirak edəcəyinə əminliyini bildirib.

Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu öz növbəsində ölkəmizdə aparılan siyasi dialoqu və dialoq çərçivəsində görülmüş işləri yüksək qiymətləndirib, ölkəmizin rifahını və dövlətimizin güclənməsini istəməyən azsaylı radikal şəxslərin arzuolunmaz fəaliyyətindən bəhs edib. Uğurlu xarici siyasət nəticəsində Azərbaycanın dünyanın ən fərqli geosiyasi qütbləri ilə münasibətlərini qoruduğu, beynəlxalq güc mərkəzlərindən gələn təzyiqləri neytrallaşdırdığı və bütün bunların nəticəsində sabitliyin hökm sürdüyü əməkdaşlıq məkanına çevrildiyi qeyd olunub. Bildirilib ki, bu gün ölkəmizdə siyasi baxışlarından asılı olmayaraq, dövlətimizin güclənməsini, xalqımızın sosial rifahının daha da yaxşılaşmasını istəyən hər bir vətənpərvər şəxs Azərbaycanın uğurlarına sevinməli, bu uğurların davamlı olması üçün özü də əlindən gələni əsirgəməməlidir. Bu işdə Gələcək Azərbaycan Partiyası da öz köməyini göstərməyə daim hazırdır.

Sonda tərəflər konstruktiv əməkdaşlığın əhəmiyyətini nəzərə alaraq, bu işi sistemli şəkildə davam etdirmək barədə fikir mübadiləsi aparıblar. Mayın 22-də Brüsseldə Azərbaycan və Ermənistan rəhbərləri arasında keçirilmiş görüş yüksək qiymətləndirilib, iki ölkə arasında sərhədin delimitasiyası üzrə Dövlət Komissiyasının yaradılmasının regionda sülhün və təhlükəsizliyin təmin olunmasında vacib rol oynayacağı bildirilib.

# Ərəb KİV-də Azərbaycanın beynəlxalq təşkilatlara rəhbərliyi barədə məqalə yayımlanıb



İordaniyanın "Əl Ənbat", "Cohina", "Nəbd ən Balad", Əlcəzairin "Əl Hərir" portallarında Azərbaycanın beynəlxalq təşkilatlara uğurlu rəhbərliyi haqqında məqalə yayımlanıb. AZƏRTAC xəbər verir ki, bu yaxınlarda İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏTPA) Üçüncü Ümumi Konfransında bu quruma sədrliyin Pakistan İslam Respublikasının Milli Assambleyasından Azərbaycan Respublikasının Milli Məclisinə keçdiyini diqqətə çatdıran məqalənin müəllifi şərqşünas Həşim Məmmədov ölkəmizin bir neçə mötəbər quruma uğurla sədrlik etdiyini diqqətə çatdırıb. O vurğulayıb ki, beynəlxalq təşkilatlarda ən yüksək səviyyədə təmsil olunmaq istiqamətində Prezident İlham Əliyevin siyasəti Azərbaycanın nüfuzunu daha da artırıb. Bu gün ölkəmiz BMT, İƏT, ATƏT, Avropa Şurası, MDB, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatının ən nüfuzlu üzvlərindən biridir. Eyni zamanda, Azərbaycan 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına sədrlik edir və dövlətimizin başçısı burada qlobal liderlik keyfiyyətlərini nümayiş etdirir. Məhz diplomatiya və sərkərdəlik məharətinə görə Prezident İlham Əliyev Türk Dünyasının Ali Ordeninə layiq görülüb.

# Azərbaycan-Türkiyə: qalibiyyətə hesablanmış geostrategiya və vahid liderlik faktoru




*İki qardaş ölkənin sarsılmaz, möhkəm bağlılıqları bütün sahələri əhatə etməsi ilə yanaşı, qlobal dünyaya yeni çağırışlar sərgiləməkdədir*



***Qardaş Türkiyənin sabiq baş naziri Binəli Yıldırım Türkiyə ilə Azərbaycan arasında olan müttəfiqlik münasibətlərini şərh edərkən maraqlı bir tarixçəni xatırladıb.***

"Vaxtilə Əbülfəz Elçibəy dörd vertolyot istədi, Türkiyə onları verə bilmədi. Bu gün isə Preizdent Ərdoğan bildirir ki, "Qarabağ sizin haqq işinizdir", deyə xatırladan Binəli Yıldırım bir mühüm amili diqqətə çatdırmaq istəyib ki, bu gün Türkiyə-Azərbaycan münasibətləri tarixin ən yüksək zirvəsindədir və tarix boyu Türkiyə və Azərbaycan heç vaxt bu qədər bir birinə yaxın olmayıblar. Eyni zamanda, vaxtilə Ermənistanın törətdiyi soyqırımından azərbaycanlı mülki əhalini xilas etmək istəyən Azərbaycana Türkiyə yardım əlini uzada bilməmişdi. Amma indi Türkiyə tam şəkildə və birmənalı olaraq Azərbaycanın yanındadır, ölkələrimiz arasında qarşılıqlı dəstək potensialı əsaslı qaydada realizə olunmaqdadır. Və bu gün tarixi, mədəniyyət və digər önəmli əsaslarla yanaşı, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayib Ərdoğanın həyata keçirdikləri siyasət iki qardaş ölkə arasında münasibətlərin ən yüksək zirvəyə qalxmasını şərtləndirən əsas amildir!

Həmçinin, bütün dünyaya örnək ola biləcək bu münasibətlər digər faktoru da önə sürür - artıq bu gün nə Türkiyə, nə də Azərbaycan ötən əsrin 90-cı illərindəki ölkələr deyil, Prezident İlham Əliyev və Prezident Ərdoğanın sayəsində öz taleyi, siyasəti, münasibətləri və s. ilə bağlı özləri, müstəqil qərar verən, maraq və mənafelərini müdafiə etməyi və istənilən təzyiqə müqavimət göstərməyi bacaran güclü dövlətlərdirlər.

Ən əsası isə, Prezident Ərdoğanın qətiyyəti və Qarabağ müharibəsində Azərbaycana dəstəyi ölkələrimizin şanlı tarixlərinə yazılan zəfər simvollarından biridir. Təkcə müttəfiqliyimizi əks etdirən Şuşa bəyannaməsi özündə bütün reallıqları əks etdirməkdədir. Belə ki, Azərbaycan-Türkiyə qardaşlığı əsasında formalaşan daha bir gerçəklik budur ki, məhz 44 günlük Vətən müharibəsində əldə edilən qələbədən sonra regionda yaranan yeni geosiyasi mühit lider ölkə keyfiyyətlərini daha çox önə sürdü. Artıq əminliklə deyə bilərik ki, regionun lider ölkəsi qardaş Türkiyədir və Türkiyənin liderliyi eyni zamanda, Azərbaycanın artan liderlik imkanlarını tamamlayır. Daha dəqiq desək, dəyişən reallıqlar fonunda Azərbaycan-Türkiyə birliyinin, müttəfiqliyinin geostrategiyası üzərində qurulan vahid siyasət vektoru özündə liderlik faktorlarını da ehtiva etməkdədir.

## Azərbaycan Türkiyəsiz, Türkiyə də Azərbaycansız qərarlar qəbul etmir, qarşılıqlı və davamlı müzakirələr fonunda əhəmiyyətli qərarlar verilir, nəticələr hasil olunur

Vətən müharibəsindən əvvəl və sonra regionda cərəyan edən hadisələrin müqayisəsini də aparsaq belə qənaətə gələ bilərik ki, əslində qazanılmış bu uğur düşünülmüş və məqsədyönlü vahid strategiyanın məntiqi nəticəsidir. Regional məsələlərin hər birində Azərbaycan Türkiyəsiz, Türkiyə də Azərbaycansız qərarlar qəbul etmir, qarşılıqlı və davamlı müzakirələr fonunda əhəmiyyətli qərarlar verilir, nəticələr hasil olunur.




Məlum olduğu kimi, mayın 22-də keçirilmiş növbəti Brüssel görüşündən sonra Prezident İlham Əliyev Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana telefon zəngi edərək Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri arasında keçirilən görüş barədə məlumat verib. Rəsmi məlumatlardan da əldə etdiyimiz informasiyaya görə, dövlətimizin başçısı görüş zamanı Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması, bu xüsusda Azərbaycan tərəfindən beynəlxalq hüquqa əsaslanan beş prinsipin təqdim olunması, iki ölkə arasında münasibətlərin normallaşdırılması, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin delimitasiyası ilə bağlı müzakirə olunan məsələlərə və s. danışıqlar predmetlərinə toxunub və eyni zamanda, üçtərəfli görüşün nəticəsini müsbət qiymətləndirdiyini bildirib.

O cümlədən, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da üçtərəfli görüş barədə verilən məlumata görə minnətdarlığını ifadə edib və bu görüşdə əldə olunan müsbət nəticələri yüksək qiymətləndirib. Hər iki qardaş ölkənin liderləri bölgədə sülhün tezliklə əldə edilməsinin önəmini vurğulayıblar. Həmçinin, dövlət başçıları söhbət zamanı ikitərəfli dostluq və qardaşlıq münasibətlərinə dair məsələlər və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

## Əbəs deyil ki, festivalın şüarı da cəlbedici və qürurdoğurucudur - Bir millət, iki dövlət, tək festival!

İstər hərbi-müdafiə və hərbi sənaye, istərsə də digər faktorlarda daim Azərbaycanın yanında olduğunu praktiki şəkildə sübuta yetirməkdədir. Biz buraya iki ölkənin Müdafiə Nazirlikləri tərəfindən keçirilən və ənənə şəklini alan planlı hərbi təlimlərini, habelə birgə iqtisadi layihələri icra etməsini də göstərə bilərik.

Yeri gəlmişkən, artıq iki ölkənin qardaşlıq bağlarını əlaqələndirən daha bir önəmli hadisə reallaşdırılacaqdır. Bakıda dünyanın ən böyük texnologiyalar nümayişi - Texnofest (Teknofest) festivalı keçiriləcək. Əbəs deyil ki, festivalın şüarı da cəlbedici və qürurdoğurucudur - Bir millət, iki dövlət, tək festival!

Mühüm amillərdən biri də budur ki, Azərbaycan 44 günlük müharibə dövründə dünyaya beşinci nəsil yeni, müasir müharibə və qələbə reallığını göstərdi. Təkcə zərbə dronlarının istifadəsi və düşmənə sarsıdıcı zərbələrin endirilməsi də sübut edir ki, Azərbaycan qardaş Türkiyənin mənəvi dəstəyi ilə özünü tənha hiss etmədi.

Bu arada onu da xatırladaq ki, Mayın 28-də isə həm bu kimi mühüm festivalın keçirilməsi, həm də Müstəqillik Günü ilə bağlı qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya rəsmi səfəri planlaşdırılır. Bu səfər əsnasında isə növbəti müzakirələr aparılacaq, qərarlar qəbul ediləcək.

26-29 may tarixlərində keçiriləcək festivalda həm qardaş ölkənin, həm də ölkəmizin qabaqcıl hərbi və s. kibertexnologiyaları təqdim ediləcək. Əlbəttə ki, bütün bunlar yaxın gələcəkdə regional liderlik amilini daha yüksək sferaya qaldıracaq və regional nüfuzun möhkəmləndirilməsinə öz münbit təsirlərini göstərəcək. Beləliklə, iki qardaş ölkənin sarsılmaz, möhkəm bağlılıqları bütün sahələri əhatə etməsi ilə yanaşı, qlobal dünyaya yeni çağırışlar sərgiləməkdədir.

**Rövşən RƏSULOV**



# Beynəlxaq tədbirləri milyonlara təqdim edən məkan




*Dövlət başçısının Sərəncamı ilə İctimai Televiziya və Radio Yayımları Şirkətinə 640,0 (altı yüz qırx) min ABŞ dollarının manat ekvivalentində vəsait ayrılıb*

Ölkənin ictimai-mədəni həyatında əhəmiyyətli hadisələri milyonlarla tamaşaçıya təqdim edən Azərbaycan televiziyası hər kəsin evində bir ab-hava yaradıb. XX əsrin ən möhtəşəm kəşflərindən olan və hər gün insanlarla ünsiyyət yaradan, cəmiyyət həyatında əvəzsiz yer tutan televiziya yarandığı zamandan keşməkeşli günləri də, xoş soraqları da izləyicisinə çatdırıb. Xalqın maarifləndirilməsi, əxlaqi-estetik tərbiyəsi, məlumatlandırılması kimi təməl prinsiplərini fəaliyyət məqsədinə çevirən televiziya hər nəslin müasiridir. Ölkəmizdə fəaliyyət göstərən televiziyalar sırasında İctimai Televiziya və Radio Yayımının da öz yeri, çəkisi var. Azərbaycan Respublikası əhalisinin - bütövlükdə cəmiyyətin, habelə onun ayrı-ayrı təbəqələrinin sosial, elm, təhsil, mədəniyyət, əyləncə və digər sahələrdəki ümumi maraqlarını təmin edərək, söz və fikir azadlığını, müxtəlif baxış və əqidələri əks etdirir. Doğru məzmunlu, tarazlaşdırılmış informasiyalar hazırlamaq, bu informasiyaları müasir texniki və keyfiyyət standartlarına uyğun şəkildə yayımlamaq kimi məqsədə xidmət göstərir. Belə ki, yarandığı zamandan İctimai Televiziya milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyub inkişaf etdirən maarifləndirici, məlumatlandırıcı proqramlar vasitəsilə vətəndaşların maraqlarını təmin edir. Azərbaycan və dünya müəlliflərinin əsərləri üzrə yüksək sənətkarlıq nümunəsi olan tamaşalar, bədii, sənədli və cizgi filmləri, seriallar, incəsənət əsərləri, mühüm tarixi və mədəni tədbirlər lentə alınaraq "Qızıl fond"da saxlanılır. İllərdir ki, Türkiyə, Macarıstan, Polşa, Koreya, Rumıniya, Gürcüstan, Almaniya, Fransa və digər ölkələrin ictimai yayımçıları ilə əməkdaşlıq şəraitində işləyərək, sözügedən telekanallarla mübadilə proqramları həyata keçirir. Belə əməkdaşlıq sayəsində təşkil edilən telekörpülər, birgə layihələr mədəniyyətlər vasitəsi ilə müxtəlif xalqlar arasında körpü yaradır, müxtəlif mədəniyyətə və dini görüşə malik xalqların daha da yaxınlaşmasına, qarşılıqlı anlaşmaya və inkişafa yardımçı olur.

Müxtəlif məzmunlu proqramları yayımlayan İctimai Televiziya müasir dövrün XXXIII Olimpiadasının Oyunları adlandırılan 2024-cü il Yay Olimpiya Oyunlarını da yayımlamaq hüququndadır. "Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinə maliyyə dəstəyi göstərilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, 2024-cü ildə Fransanın Paris şəhərində keçiriləcək XXXIII Yay Olimpiya Oyunlarını yayım hüququnu Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinin əldə etməsi üçün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan İctimai Televiziya və Radio Yayımları Şirkətinə 640,0 (altı yüz qırx) min ABŞ dollarının manat ekvivalentində vəsait ayrılıb. Vurğulamaq yerinə düşər ki, İctimai Televiziya müxtəlif məzmunlu proqramların, bir sıra beynəlxalq telelayihələrin Azərbaycanda eksklüziv yayımçısına çevrilib. Kann kinofestivalını, Vyana Filarmoniya orkestrinin konsertini, "World Music Awards", Olimpiya oyunları kimi bütün dünyada maraqla izlənən böyük layihələri Azərbaycan auditoriyasına, məhz İctimai Televiziya təqdim edib. 24 saat ərzində Azərspace və Hotbird peykləri vasitəsilə İctimai Televiziya və Radio dünyanın əksər ölkələrinə, www.itv.az ünvanlı internet saytı ilə bütün dünyaya yayımlanır. İctimai Televiziya və Radio Yayımları Şirkəti dövr ilə ayaqlaşan gənc, yaradıcı, möhtəşəm idman növlərini təqdim edəcək XXXIII Yay Olimpiya Oyunlarını da işıqlandırmaq üçün yayım hüququnu qazanaraq, böyük auditoriyaya yayımlayacaq.

**Zümrüd BAYRAMOVA**

## Səlcuq Bayraqdar: "TEKNOFEST" Ukrayna, İndoneziya, Özbəkistan kimi ölkələrdə də keçiriləcək



"TEXNOFEST" Aviasiya, Kosmos və Texnologiya Festivalı Ukrayna, İndoneziya, Özbəkistan kimi ölkələrdə də keçiriləcək. SİA xəbər verir ki, bu sözləri "Bayraktar TB2" pilotsuz uçuş aparatlarının yaradıcısı, "Baykar Savunma" şirkətinin texniki direktoru Səlcuq Bayraqdar deyib. "Əlbəttə bizim üçün qardaş ölkə Azərbaycan hər zaman birincidir. Düşünürəm ki, bu festival iki qardaş ölkənin kosmos dövlətinə çevrilməsi istiqamətində mühüm rol oynayacaq", - deyə S.Bayraqdar vurğulayıb.

Qeyd edək ki, Türkiyədən kənarda ilk "TEKNOFEST" mayın 26-29-da Azərbaycanda, Bakı Kristal Zalı və ətrafındakı Dənizkənarı Bulvar ərazisində keçiriləcək.




# DSX-nin Aparatında tədbir keçirilib



***May ayının 25-də Dövlət Sərhəd Xidmətinin Aparatında istefada olan sərhədçi general-mayor Abbasəli Ramazan oğlu Novruzovun anadan olmasının 85 illik yubileyi münasibətilə tədbir keçirilib. DSX-nın Mətbuat Mərkəzindən SİA-ya verilən məlumata görə, yubiley tədbirində Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və digər rəhbər şəxslər, qurumun şəxsi heyəti, həmçinin istefada olan sərhədçi general-leytenant İnayət Xəlilov və general-mayor İsgəndər Allahverdiyev iştirak ediblər.***

Tədbirdə çıxış edənlər həyatını Vətənimizin hüdudlarının qorunmasına həsr etmiş general-mayor Abbasəli Novruzovun keçdiyi şərəfli ömür və xidmət yoluna nəzər salmış, ömrünün 57 ilini sərhədlərin mühafizəsi işinə həsr edən Abbasəli Novruzovun xidmət etdiyi bütün vəzifələrdə ona göstərilən etimadı ləyaqətlə doğrultduğunu vurğulayıblar.

Hələ sovetlər dönəmində ölkəmizin sərhədlərinin qorunması üçün milli sərhədçi kadrların yetişdirilməsinə xüsusi diqqət yetirən Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində qısa müddət ərzində sərhəd mühafizəsində azərbaycanlı zabitlərin sayının artması, onların yüksək vəzifələrə irəli çəkilməsi qeyd olunub.

1979-cu ildə Abbasəli Novruzovun Ulu Öndərin təşəbbüsü ilə Azərbaycanın "Əməkdar hüquqşünas"ı fəxri adına və "SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin fəxri əməkdaşı" adına layiq görüldüyü, 1993-cü ildə Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra təcrübəsinə və yüksək peşəkarlığına yaxşı bələd olduğu Abbasəli Novruzovu yenidən xidmətə qaytararaq Azərbaycanın Milli Təhlükəsizlik nazirinin müavini - Sərhəd Qoşunlarının komandanı vəzifəsinə təyin etdiyi və az sonra general-mayor hərbi rütbəsinə layiq gördüyü vurğulanıb.

General-mayor Abbasəli Novruzovun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 may 2017-ci il tarixli Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunması qeyd edilib. Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik E.Quliyev yubilyarı təbrik edib. Abbasəli Novruzovun ömrünü sərhəd təhlükəsizliyinin təminatına həsr edərək sərhədlərimizin etibarlı mühafizəsinin təşkili sahəsində uğurla fəaliyyət göstərdiyini vurğulayan general-polkovnik E.Quliyev onun şərəfli xidmət yolunun gənc sərhədçilər üçün örnək və nümunə olduğunu qeyd edib. Tədbirin sonunda 85 illik yubileyi münasibətilə yubilyara xatirə hədiyyəsi, həmçinin general-mayor Abbasəli Novruzova, general-leytenant İnayət Xəlilova və general-mayor İsgəndər Allahverdiyevə "Şücaətə görə" medalları təqdim olunub, xatirə fotoşəkilləri çəkdirilib.

# Şərəfli ada ləkə gətirmək istəyənlər: "saxta qazilər"

***Milli dövlətçilik tariximizə əbədi olaraq həkk edilən 44 günlük Vətən müharibəsi Azərbaycan dövlətinin gücünün, əzəmətinin təntənəsidir. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan xalqı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq olaraq birləşdi və Azərbaycan Ordusunun gücü, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi nəticəsində təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi.***




*Prezident İlham Əliyev: "Öz sağlamlığını itirmiş, yaralanmış qazilər bütün dövlət orqanları tərəfindən daim qayğı ilə əhatə olunmalıdır və biz bunu təmin edirik"*

30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistanı döyüş meydanında məğlub edərək, ədalətin qələbə çaldığını dünyaya göstərimiş oldu. Vətən müharibəsində qazandığımız Zəfər bütün dünyaya yayıldı. Qızğın döyüşlərdə yaralanan qazilərimiz, vətən torpağını qanı ilə suvaran şəhidlərimiz qəhrəmanlıq tarixini yazdılar. Bu parlaq Zəfəri bizə yaşadan Vətən müharibəsi iştirakçıları, qazilərimiz və canını Vətən yolunda qurban verən şəhidlərimizə borcluyuq.

### 44 GÜNLÜK MÜHARİBƏDƏ DÖYÜŞ MEYDANINDA, ARXA CƏBHƏDƏ QƏHRƏMANLIQ GÖSTƏRMİŞ HƏRBÇİLƏRİMİZ TƏLTİF EDİLDİLƏR

44 günlük Vətən müharibəsində torpaq uğrunda mücadiləyə qalxaraq, erməni işğalında olan torpaqlarımızın azad olunması yolunda od-alov içinə atılan vətən övladları böyük sevgi, qayğı il əhatə olunub. Xalqımıza məxsus ərənliyi düşmənlə üz-üzə dayanaraq dünyaya göstərənlər yüksək adlara, mükafatlara, ehtirama layiqdirlər.

Azərbaycan Zəfər qazandıqdan sonra dövlətimizin şəhid ailələrinə, qazilərə hərtərəfli dəstəyi, onların bütün ehtiyaclarının qarşılanması, problemlərinin həlli, sosial təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. "Mən bütün bu 44 gün ərzində, ondan əvvəl və ondan sonra döyüş meydanında, arxa cəbhədə qəhrəmanlıq göstərmiş hərbçilərimizi təltif edəcəyəm" - deyən Cənab İlham Əliyevin müvafiq göstərişi ilə Azərbaycanda yeni ordenlər və medallar təsis edildi. "Vətən müharibəsi qəhrəmanı" adı, "Zəfər" və "Qarabağ" ordeni, "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" və s. medallarla Vətən müharibəsində torpaqlarımızın düşməndən alınmasında qəhrəmanlıq, şücaət göstərənlər təltif olundular. Bu dövlətimizin mərd, mübariz, vətənpərvər, igid övladlarına diqqətinin, qayğısının təzahürüdür.

Qazilərimiz və şəhidlərimiz, onların ailələri cəmiyyətin, dövlətin həssaslıqla, böyük ehtiramla, qayğı ilə yanaşdığı təbəqədir. Bu gün belə bir diqqət və qayğı ilə əhatə olunmuş qazilərimizin adına xələl gətirən "saxta qazilər" ən yüksək ucalıqda dayanan adlardan olan qazi adından sui-istifadə edirlər. Dövlətin hərtərəfli dəstəyi, diqqət və qayğısı fonunda qanuna zidd əməllər sərgiləmək əlbəttə ki, yolverilməzdir. Sözsüz ki, bu hamıya şamil oluna bilməz. Vətən adını hər şeydən üstün tutan, bu torpağın namusunu qanı ilə qorumağa can fəda edən oğullarımız ən böyük ehtirama layiqdirlər. Heç zaman belə oğullar hansısa bir məqsədi əsas götürərək döyüş meydana atılmayıblar. Uşaqlıqdan dünyalarına hakim kəsilən intiqam hissi onları bu yüksəkliyə ucaltdı. Vətən üçün tökülən qan torpağın basılmaz olduğunu göstərir. Amma etiraf edək ki, bu gün bəzi şəxslərin özlərini qazi kimi təqdim etməsi, imtiyazlar əldə etmək məqsədilə dövlət orqanlarını şantaj etməsi, müxtəlif səhnələr qurараq dövlət orqanlarını qınaq hədəfinə çevirmək cəhdləri yolverilməzdir. Belə halların qarşısı alınmalıdır. Şəhid ailəsi və qazi adına ləkə gətirən belə hallar ictimai qınağa səbəb olur.

### "MƏN ELƏ BİR ÖLKƏ TANIMIRAM Kİ, MÜHARİBƏLƏRDƏ HƏYATINI İTİRMİŞ İNSANLARIN YAXINLARINA BU DƏRƏCƏDƏ DİQQƏT GÖSTƏRİLSİN"

Gəlin, dövlətimiz tərəfindən onlara ayrılan diqqətə qısa da olsa nəzər salaq. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinin, fiziki sağlamlığını itirən qazilərin, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Eyni zamanda, şəhid adının əbədiləşdirilməsi ilə bağlı addımlar atılır, onların əziz xatirəsi daim yad edilir. Ölkə Prezidentinin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədi ilə "YAŞAT" Fondu yaradılıb. Eləcə də, "Qarabağ Dirçəliş" Fondu ərazi bütövlüyümüzün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatı, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə geniş quruculuq və bərpa işlərinin aparılmasına töhfələr verir. Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət və pensiya ilə yanaşı, Prezident təqaüdü verilir.

Postmüharibə dövründə şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub. Mənzil proqramı 5 dəfə genişləndirilib, 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib. Beləliklə, ümumilikdə 12500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə, 7400 müharibə əlili avtomobillə təmin olunub. Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili son nəsil protezlərlə, 1400 müharibə əlili 17 min reabilitasiya vasitəsi, 5 min ailə sosial-psixoloji, 1500 şəxs reabilitasiya xidmətləri ilə təmin edilib, 11 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub, vahid əlaqələndirmə mərkəzləri tərəfindən isə 30 min şəxsə xidmətlər göstərilib. Bütün bunlar dövlətin diqqət və qayğısı deyilmi? Belə olan halda saxta yanaşmalara, fikirlərə ehtiyac varmı? Müharibədən çıxmış bir dövlətin humanist prinsiplərinə əsaslanan bu addımları böyük ehtiramla qarşılanır. Bizdə bu sahədə tətbiq olunan prinsiplərin öz unikallığı ilə seçildiyini bildirən dövlət başçısı bildirib ki, bir çox ölkələrdə müharibələr, münaqişələr olub, ancaq mən elə bir ölkə tanımıram ki, müharibələrdə həyatını itirmiş insanların yaxınlarına bu dərəcədə diqqət göstərilsin: "Ermənistan da itkilər verib və İkinci Qarabağ müharibəsində bizdən haradasa 2-3 dəfə çox itki verib. Amma baxın görün, orada müharibədə ölənlərin ailəsinin birinə bir mənzil verilir? Yox. Avtomobil verilir? Yox. Bir daxma da verilmir. Yəni, bu onu göstərir ki, bizim bu sahədəki siyasət, sözün əsl mənasında, milli siyasətdir. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Ən həssas kateqoriyadan olan vətəndaşlar, ilk növbədə, dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır".

Şəhid ailələrinə və əlillərə keçən il 3 min, bu il 1500 mənzil verilib və bundan sonra da veriləcək. Dövlət başçısının vurğuladığı kimi, "Həyat və gördüyümüz işlər onu göstərir ki, bu sahədə Azərbaycanda aparılan siyasət ən humanist siyasətdir, ən ədalətli siyasətdir və vicdanlı siyasətdir. Çünki Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvləri dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır və biz bunu bu gün əyani şəkildə görürük. Öz sağlamlığını itirmiş, yaralanmış qazilər bütün dövlət orqanları tərəfindən daim qayğı ilə əhatə olunmalıdır və biz bunu təmin edirik."

### ƏLİL ARABASINDA DİLƏNÇİLİK EDƏN "SAXTA QAZİLƏR"

Amma çox təəssüf ki, cəmiyyətimizdə bəzi üzdəniraqlar tapılır, onlar qazilərimizin və şəhid ailələrimizin adlarından sui-istifadə edərək xoşagəlməz davranışlar sərgiləyirlər.

Belə hərəkətlərə yol verənlərin nə qaziliklə, nə də şəhid ailələri ilə əlaqəsi yoxdur. Qazilərin və şəhid ailələrinin adlarından sui-istifadəyə görə əlbəttə ki, hansısa bir yol ilə onlar cəzalandırılmalıdır. Böyük şərəfə layiq adın qarşısına kölgə salmasınlar. Sözsüz ki, cəmiyyətimiz açıq fikirli və hər kəsi öz simasında tanımağı bacarır. Saxtakarlıqla müxtəlif yollara əl atanlar gec-tez ifşa olunurlar. Belə insanlar yalnız çirkin əməl və niyyət sahibi olduqlarını bir daha cəmiyyətimizə təqdim edirlər. Bir çox hallarda belə xoşagəlməz insanların çağırış və hay-küyləri ilə rastlaşsaq da amma həqiqət sənəd və faktların dili ilə onların taxdıqları maskaları çıxarır. Qəhrəmanlığımızı cılızlaşdırmağa çalışmaq niyyətində olan saxta qazilər ifşa olunurlar. Həqiqi qazilərimiz - vətən yolunda sağlamlığını itirərkən "Vətən sağ olsun", - deyən oğulların məğrurluğu danılmazdır. Əzəməti, addımı, xoş niyyəti olan qazilərimizə, vətən çörəyi sənə halal olsun, deyirik. Vətən torpağında boy atıb, onu qoruyan oğulları Azərbaycan yetişdirib. Ana dediyimiz AZƏRBAYCAN. Müharibələr bitdikdən sonra özünü "müharibə iştirakçısı" kimi qələmə verənlər, özlərini "əlil" kimi təqdim edənlər, görəsən, bu torpağın oğlu olmalarından əzab çəkirlərmi? Amma çox təəssüflər olsun ki, belə neqativ hallar bizdə var.

Əlbəttə ki, Birinci Qarabağ müharibəsindən sonra da belə xoşagəlməzliklərlə rastlaşmışıq. Amma o illərlə bu günki dövrümüz müqayisəyə gəlməz. Anarxiya, xaos və s. baş alıb gedirdi. Əlbəttə ki, vəziyyətin hansı formada olması heç də bizə bəraət qazandıra bilməz ki, kimsə saxta cildə girsin və tələblər irəli sürsün. Təbii ki, 30 il müddətində dövlətimiz formalaşıb. Dövlət və cəmiyyət Vətən müharibəsində iştirak edən, qəhrəmanlıqlar göstərən qazilərə, müharibədə döyüşənlərə xüsusi hörmət, məhəbbət bəsləyir, onlara həssaslıqla yanaşır, ona görə də bəziləri saxta qazi kimi ortaya çıxıb qazilərin adından sui-istifadə edənlər, ilk növbədə, öz vicdanı ilə üz-üzə qalıb düşünməlidir. Məğrurluğu, fədakarlığı ilə yenilməz olan vətən oğulları kiməsə başaşağılıq gətirəcək addım atmazlar. Azərbaycanın vətənpərvərlik ruhunda yetişmiş oğulları ölkəmizi dünyaya qalib xalq kimi tanıtdırdılar. Amma onu da vurğulamaq yerinə düşər ki, saxta qazi adını daşıyanlar həqiqi qazilərimizdə bir ikrah hissi oyadır. Əl-ayağını itirən, dünyaya baxan gözünü itirən, psixoloji travmalar alan vətən oğullarımız belə "qazilər" ilə rastlaşdıqda, yaxud sosial şəbəkələrdə təsadüf etdik əsəb və narahatçılıq hissi keçirirlər. Heç şübhəsiz ki, yalnız dövlətin aidiyyəti qurumları deyil, bu sahədə olan ictimai təşkilatlar bu məsələlərdə ayıq və diqqətli olmalıdırlar. Müzakirələr aparılmalı, tənqid edilməli və həmin o saxta qazilər üzə çıxarmalıdırlar. Təbii ki, kimlərsə qanunu pozursa, onlar inzibati qaydada cəzalandırılmalıdırlar. Hər şeydən əvvəl isə belə məsələlərdə ictimai qınaq olmalıdır.

Bu gün özünü "Vətən müharibəsi qazisi" kimi qələmə verərək hərbi geyimdə əlil arabasında dilənçiliklə məşğul olanlara qarşı reaksiya sərt olmalıdır. Belə insanları cəmiyyət qəbul etmir. Belə dələduzlar hətta məscidlərin, ziyarətgahların ətrafında sui-istifadə halların yol verirlər. Azərbaycan xalqı kimin hansı libasda olduğunu çox aydın bilir. Bütün ictimai yerlərdə bu kimi neqativ hallarla bağlı tədbirlər həyata keçirilir. Ekspertlərin fikrincə, qazi adı ilə dilənçilik edənlərə elə ağır cəza verilməlidir ki, bu, başqalarına dərs olsun və bir də belə təxribatlara yol verənlər tapılmasın.

Bir ayağını itirmiş qazi kimi özünü təqdim edən və küçədə dilənən bir yaramazın əlilliyinin saxta olmasının görüntülərlə sübut olunması belələrinin ifşasıdır.

Ölkə rəhbərliyi tərəfindən qazilərimizə, şəhid ailələrimizə dövlət tərəfindən böyük qayğı və diqqət göstərilir, onların ən kiçik problemlərinə belə həssaslıqla yanaşılır.

**Nəzakət ƏLƏDDİNQIZI**

Təhlil



# "Zəngəzur dəhlizi", yoxsa nə?

## Yaxud Ermənistan Təhlükəsizlik Şurasının katibinə cavab əvəzi

***İki gün öncə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığında bildirib ki, mayın 22-də Brüsseldə tərəflər Ermənistan ərazisindən keçən dəhliz, o cümlədən dəmir yolu və avtomobil yolunun tikintisi ilə bağlı razılığa gəliblər.***

Bu fikirlərə Ermənistan tərəfinin cavabı özünü çox gözlətməyib. Amma Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın bu cavabı çox məntiqsiz alınıb. Bildirib ki, "Ermənistan ərazisində dəhliz məntiqində heç bir yol və ya nəqliyyat kommunikasiyası ola bilməz. Brüsseldə əldə olunan bütün razılaşmalar regional kommunikasiyaların açılmasına aiddir və Ermənistan nümayəndələrinin bundan əvvəl açıqladığı bəyanatlara uyğundur". Bu şəxsin timsalında həm də ölkəsinin bilavasitə yuxarı idarəçiliyində təmsil olunan birisinin belə çiy məlumatlar tirajlaması həqiqətən cılız görüntü yaradır. Həqiqətənmi Qriqoryanın Ermənistandakı vəziyyətdən, onun regionda küncə dirəndiyindən, kommunikasi xəttlərindən kənarda qaldığından xəbəri yoxdur? Əgər xəbəri olsaydı, təbii ki, bu şansı əldən verməz, prosesin əngəllənməsinə bu qədər həvəsli görünməzdi.

Azərbaycan qalib ölkədir, torpaqlarını məhz Ermənistan silahlı birləşmələrinin, xarici dairələrin maliyyə dəstəyi ilə fəaliyyət göstərən separatçı, terrorçu dəstələrin, klanların işğalında qurtarıb. Əslində belə bir şəraitdə, 30 il torpaqlarını işğalda saxlamaqla bərabər, şəhər və kəndlərimizdə bütövlükdə vandalizm aktı törədən, orada yaşayan insanları yurdundan, yuvasından didərgin salan işğalçı, separatçı ölkə ilə nəinki regional layihələrdə birgə iştirak etmək, hətta heç bir əlaqə yaradılmamalıdır. Amma Azərbaycan bütün bunlara rəğmən, həm də milli maraqlardan çıxış edərək Ermənistana sülh əlini uzatmağa çalışır, uzadır. İşğalçı ölkə isə hər addımda bu əlaqələrdən, ona verilən imkandan yararlanmamağa çalışır.

### Bəs Zəngəzur dəhlizi nədir?

"Zəngilan rayonu həm İranla, həm Ermənistanla həmsərhəddir, Naxçıvana da məsafə çox yaxındır. Zəngəzur dəhlizinin işə düşməsi nəticəsində, eyni zamanda, Zəngilan rayonundan İran İslam Respublikasına keçən yollar nəzərə alınmaqla ixrac bazarlarına Zəngilanda yetişdiriləcək malların çox böyük çıxış imkanı var və biz bundan maksimum faydalanmalıyıq". Bu barədə Azərbaycan prezidenti İlham Əliyev Vahid Hacıyevi prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bildirib.




Dövlət başçısı deyib: "Zəngilandan Ordubada gedən dəmir yolu, avtomobil yolu, o cümlədən İran ərazisinə keçir, - mart ayında müvafiq Memorandum imzalanmışdır, - eyni zamanda, Ermənistan ərazisindən də mütləq keçməlidir və əminəm ki, keçəcəkdir. Ona görə ixrac bazarlarına yaxınlığı, əlbəttə ki, əlavə imkanlar yaradır, həm ixrac üçün, həm də idxal üçün. Yerli istehsalın genişləndirilməsi üçün, əlbəttə ki, ixrac malları da gətirilməlidir, texnologiyalar gətirilməlidir".



İqtisadi baxımdan burada söhbət 1,1 trilyon dollardan çox nominal ümumi daxili məhsulu olan türkdilli ölkələri strateji və iqtisadi baxımdan birləşdirəcək dəhlizdən gedir. Belə ki, Türkiyə 761,4 milyard dollar, Qazaxıstan 181,7 milyard dollar, Özbəkistan 57,9 miyard dollar, Azərbaycan 48 milyard dollar, Türkmənistan 48 milyard dollar və Qırğızstan 8,5 milyard dollar nominal ÜDM-ə malikdir. Bu isə ondan xəbər verir ki, Zəngəzur dəhlizi kifayət qədər böyük iqtisadi potensiala və təbii resurslara malik olan regionu birləşdirəcək.

Zəngəzur dəhlizinin istifadəyə verilməsi, eyni zamanda, Azərbaycanı regionun nəqliyyat qovşaqlarının habına çevirəcək. Bu gün respublikamız Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir. Zəngəzur dəhlizi Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə Naxçıvanda fəaliyyət göstərən iş adamlarının çıxışının təmini baxımından əhəmiyyətli olacaq. Zəngəzur dəhlizi Azərbaycanın öz eksklavı olan Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələri də gücləndirəcək, ölkəmizin geoiqtisadi əhəmiyyəti daha da artıracaq. Zəngəzur dəhlizi eyni zamanda bütün Türk dünyasını birləşdirəcək.

Prezident İlham Əliyev Zirvə görüşündəki çıxışında deyib: "Müharibə başa çatdı, münaqişə tarixdə qaldı. Yeni imkanlar yarandı. Onların arasında hesab edirəm ki, ən vacib imkan nəqliyyat imkanlarıdır. Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq. Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün...".

Prezidentimizin bu fikirləri ondan xəbər verir ki, Zəngəzur dəhlizinin yaradılması ilə Avrasiyanın nəqliyyat şəbəkəsinin yeni bir seqmenti açılacaq. Nəticədə bölgə ölkələri arasında xüsusilə iqtisadi-ticari əlaqələrə müsbət təsir göstərəcək. Türkiyə bu dəhlizdən yararlanacaq və əsas iqtisadi tərəfdaşlarından biri olan Azərbaycana birbaşa quru yolu açılacaq. Bu da, öz növbəsində, ikitərəfli iqtisadi və turizm əlaqələrinin inkişafına stimul olacaq. Bu dəhliz həm də Türkiyə üçün Orta Asiyaya bir ticarət qapısı rolunu oynayacaq.

Ermənistanda bəzi revanşist qüvvələrin marağında isə "Qarabağ problem"dir. Həmin qüvvələr ölkələrinə verilən bu şansı dəyərləndirmək əvəzinə hələ də artıq tarixə dönmüş, geridönüşü olmayan "Qarabağ problem"ndən danışırlar. Beynəlxalq ekspertlərin də dediyi kimi, Ermənistan Zəngəzur dəhlizinin qeyd edilən üstünlüklərindən yararlanarsa, regional əməkdaşlığa önəm verərsə indi düşdüyü tənəzzüldən, iqtisadi böhrandan, səfillikdən, yoxsulluqdan daha tez qurtular, iqtisadi blokadadan çıxar və iqtisadi inkişafını gerçəkləşdirmək imkanları əldə edər.

### Zəngəzur dəhlizindən Ermənistan nə qazana bilər?

İlk öncə onu qeyd etmək yerinə düşər ki, bu Zəngəzur dəhlizi Ermənistanın yeganə və dəyişilməz xilas yoludur, bu səfil ölkə bilavasitə dünyaya birbaşa çıxış əldə edəcək. Halbuki, dünya praktikasında belə yanaşmalar - Qalib Azərbaycanın məğlub Ermənistana növbəti yaşama şansı verməsi, qurtuluş yolu göstərməsi, nadir görünən hadisələrdəndir. Bəs tarixi torpaqlarımızdan keçəcək olan dəhlizdə hansı işlər görülür? Qeyd edək ki, artıq 123,8 km və 4-6 hərəkət zolaqlı Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolu, 70 km və 4 hərəkət zolaqlı Xudafərin-Qubadlı-Laçın yolunun inşası Qarabağ regionunun, o cümlədən, Azərbaycanın nəqliyyat dəhlizlərinə çıxışını çoxşaxəli etməklə buradan keçəcək xətlərin önəmini də artıracaqdır. Cənubi Qafqaz ölkələri olan Azərbaycan, Ermənistan və Gürcüstan, qonşu ölkələr olan Türkiyə, Rusiya və İran "3+3" formatda geosiyasi əməkdaşlıq edərək kommunikasiya xətlərinin yenidən bərpa edilməsi ilə beynəlxalq tranzit daşımalarda yeni iqtisadi ağırlıq mərkəzi yarada bilər. Əlbəttə ki, bu əməkdaşlıq çərçivəsində Zəngəzur dəhlizinin siyasi və iqtisadi önəmi danılmazdır. Regionda digər həyata keçirilməsi nəzərdə tutulan layihələri dəyərləndirdikdə Zəngəzur dəhlizi region ölkələrinə daha ucuz alternativ olaraq çıxış edir. Zəngəzur dəhlizinin yaradılması ilə formalaşan yeni iqtisadi konyuktura Asiya və Avropanın nəqliyyat infrastrukturunda xüsusi önəmə malik olacaq.

**V.VƏLİYEV**



# “Teknofest” festivalına qarşı CƏMİYYƏTİN BAXIŞI - SORĞU

***“Teknofest" Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalıdır. Tədbir "Türkiyə Texnologiya Komandası" - T3 Fondu və Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyi tərəfindən 2018-ci ildən etibarən hər il təşkil olunur. "Teknofest" Aviasiya, Kosmos və Texnologiya Festivalının Türkiyədən kənarda ilk dəfə Azərbaycanda keçirilməsi iki ölkə arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik əlaqələrinin növbəti təzahürüdür.***

”Teknofest” festivalı ölkəmizdə 26-29 may tarixlərində keçiriləcək. Bəs görəsən şəhər sakinləri ”Teknofest” festivalı ilə bağlı nə fikirləşir? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik:



**Şəhər sakini Mədinə Orucova:** ”Azərbaycanda belə bir festivalın keçirilməsi təbii ki, ölkəmiz üçün vacibdir. Mən də istəyərəm ki, bu festivalda iştirak edəm. İndi də bu festivala görə hazırlıq işləri görülür. Məncə, əhəmiyyətli bir festivaldır”.



**Şəhər sakini Nuranə Abbasova:** ”Bu festivalda Türkiyənin, eləcə də Azərbaycanın texnoloji alətləri, pilotsuz uçuş aparatları sərgilənəcək. ”Texnofest” festivalı Azərbaycan üçün əhəmiyyətlidir. Burada həm də iki qardaşın - Azərbaycanın və Türkiyənin gücü nümayiş olunur”.



**Şəhər sakini Elgün Əsgərov:** ”Bu festival Azərbaycan üçün önəmlidir. Burada Azərbaycanın və Türkiyənin gücü, texnikası nümayiş etdiriləcək. Mən də bu festivalda iştirak etmək istərdim. Düşünürəm ki, bu Azərbaycanın növbəti uğurudur”.



**Şəhər sakini Tünzalə Bağırova:** ”Teknofest” festivalının Azərbaycan üçün böyük əhəmiyyəti var. Azərbaycan dövləti onsuz da öz gücünü bütün dünyaya nümayiş etdirib. Düşünürəm ki, bu, dövlətimizi bir daha dünyaya tanıdacaq. Azərbaycanın etdiyi hər bir şey dünyaya bir nümunədir. Məncə bu da dünya üçün



bir nümunə olacaq”.

**Şəhər sakini Sevinc İsmayılova:** ”Ailəliklə ”Teknofest” festivalına getməyi düşünürük. Uşaqlar orada olan aparatları, texnologiyaları görmək istəyirlər. Bundan əlavə də Azərbaycan artıq müasir bir dövlətdir və Azərbaycanda bir çox əhəmiyyətli tədbirlər, festivallar keçirilir. Bu festival da ölkəmiz üçün böyük bir şansdır. Bir daha Azərbaycanı dünyada tanıdacaq”.

**Şəhər sakini Aqil Məmmədov:** ”Məncə, bu festival maraqlı olacaq. Azərbaycan üçün əhəmiyyəti var. Düşünürəm ki, bu festival Azərbaycan və Türkiya qardaşlığını daha da möhkəmləndirəcək”.

***Müəllif: Abutel İlhamqızı***

## Valideyn-övlad münasibətinə BAXIŞ NECƏDİR?



“Bu gün ailələrdə valideyn-övlad münasibətlərinin düzgün qurulmaması uşaqların intihar etməsinə səbəb olur”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.

Onun sözlərinə görə, əsasən yeniyetməlik dövründə bu hallar daha çox baş verir: ”Bu gün yeniyetmənin ”valideynim məni anlamır, bəs mənə kim kömək etsin?” sualına daha tez-tez rastlaşıram. Bu cür valideynlər övladlarını sevir və onlara qayğı göstərirlər. Sadəcə bu günün reallığına uyğun olaraq övladlarımız indiki dövrün uşaqları olduğundan sanki övladımızı anlamaq istəmirik. Valideyn günün reallığına uyğun olaraq dava-dalaşsız münasibət qura bilmir. Övladımızı rəğbətləndirdiyimiz kimi onlara küskünlüyümüzü də bildirməliyik. Biri də var ki, biz övladımızı stressə salırıq. Stress anında övladımızın psixi xüsusiyyətini bilmədiyimizə görə, övladımızı özümüzdən daha da uzaqlaşdırırıq. Odur ki, övladımızla qurulacaq münasibətdə ilk olaraq övladımızdan nə istəyirik sualına cavab verməliyik. Bu gün özümüz əldə etmədiyimiz uğurları övladımıza yüklədiyimiz zaman düşünmürük ki, onun beyninin içərisində bir balaca stress çıxış yolunu intiharda görsün. Valideyn-övlad münasibətlərində biz əlimizdən gələni edirik ki, onları qazanmaq əvəzinə itirməyək”.

***Arzu Qurbanlı***

## “Litva və Azərbaycan münasibətləri yüksələn xətlə inkişaf edir”



“Litva və Azərbaycan münasibətləri yüksələn xətlə inkişaf edir. Hər iki ölkə arasında uzun illərdir ki, bir sıra ikitərəfli görüşlər keçirilib, danışıqlar aparılıb, rəsmi sənədlər imzalanıb. Mən deyə bilərəm ki, imzalanan bu sənədlərdən ən mühümü ”Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında” birgə bəyannaməsi olub. Ölkə başçısı İlham Əliyevin Litvaya 2007-ci ildəki səfəri Azərbaycan-Litva münasibətlərinin inkişafına geniş perspektivlər açdı”. Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib.

Onun sözlərinə görə, Azərbaycan Litva ilə iqtisadi əlaqələrin genişləndirilməsinə, kapital qoyuluşuna, müxtəlif iqtisadi layihələrin birgə həyata keçirilməsinə xüsusi əhəmiyyət verir: ”18 may tarixində keçirilən Azərbaycan-Litva biznes forumu işgüzar əlaqələr qurmaq üçün yaxşı fürsət kimi qiymətləndirilə bilər. Eyni zamanda bundan sonra hər iki ölkədə yeni işlər qurmaq üçün çoxlu imkanlar yaradacaqdır. Bildiyimiz kimi hazırda gündəlikdə olan əsas məsələlər arasında ticarət, investisiya, kənd təsərrüfatı, informasiya texnologiyalarının inkişaf etdirilməsi, nəqliyyat, enerji və təhsil sahələri var. Ölkəmizdə biznes mühiti yeni investorlar üçün olduqca əlverişlidir. Elə dünya şirkətləri var ki, Azərbaycan biznes mühitinə on milyardlarla birbaşa xarici investisiyalar qoyurlar”.

Deputat sözlərinə belə davam edib: ”Dövlət iqtisadi siyasətinin gündəliyində olan məsələrdən biri də xarici şirkətlərin sərmayə portfelinin şaxələndirilməsidir. Uzun illər investisiya proqramları əsasən neft-qaz sektoruna aid idi. Hazırda isə investisiya bərpaolunan enerji sahəsini və başqa müxtəlif sahələri də əhatə edir. Bu da ölkəmizdəki xarici biznes mühitinin inkişafından xəbər verir.

Bizim bütün səylərimiz regionda sülh və sosial iqtisadi rifahın təmin olunmasıdır. Azərbaycan isə bu missiyanı yerinə yetirə biləcək gücə malikdir. Beynəlxalq aləm də sülh və təhlükəsizliyin təmin olduğu mühitlərdə qarşılıqlı iqtisadi əlaqələrə maraqlıdır. Bu gün Azərbaycan bütün dünya ölkələri ilə qarşılıqllı faydalı və səmərəli əlaqələrə malikdir. Avropa Şurasının son illərdə dövlətimizin siyasi xəttini dəstəkləməsi və sülhə olan marağımızı yüksək qiymətləndirib, bu sahədə fəaliyyəti həqiqətən təqdirəlayiq haldır”.

***Ayşən Vəli***

# Narkotacirlər məktəbə necə ayaq açıb?





**Maddə asılılığında istifadə olunan psixoaktiv maddələr:**

Stimulyatorlar (kokain, amfetamin, kofein),

Narkotik maddələr (tiryək alkaloidləri, barbituratlar, benzodiazepinlər),

Halüsinojenlər (marixuana, lisergik turşu dietilamid-LSD, fensiklidin-PCP),

Uçucu maddələr (nazik və s.).

Dünyanın ən təhlükəli maddələrindən biri olan heroin şüuru dəyişir, həyat reallığı ilə oynayır. Qıcolma və komaya səbəb ola bilən heroin dünyanın ən bahalı narkotik maddələri sırasındadır.

***Təhsil müəssisəsində olan nizam-intizama təhsilin tərkib hissəsi kimi baxmaq lazımdır. İntizam müvəffəqiyyətin vacib elementidir və öyrənməni asanlaşdırır. Müəllimlik peşəsinin ən çətin tərəflərindən biri ona həvalə olunan sinifi idarə etməkdir. Əgər bir sinifdə müəllim şərh edir və şagirdlər də səssizcə onu dinləyirsə, deməli o müəllim artıq sinifi yaxşı mənada ələ alıb.***



Nizam-intizam təhsil müəssisəsi üçün çox vacibdir. Disiplin şagirdlərin nizamsız davranışlarını tənzimləmək üçün istifadə olunan metoddur. Lakin şagirdin nizam-intizamını yalnız məktəbin üzərinə atmaq da düzgün deyil. Burada valideyn faktoru da önəmli rol oynayır. Yəni, uşağa tərbiyəni və nizam-intizamı yalnız məktəb öyrətməməlidir.

Hamımız bilirik ki, sinifdə effektiv təlim mühiti yaratmaq üçün uşaqların narahatedici və ya uyğun olmayan davranışlarını idarə etmək müəllimlərdən böyük zəhmət tələb edən məsələlərdən biridir. Sinifdə yaradılan nizam-intizamı pozan, təlim-tərbiyə işlərinin planlaşdırıldığı kimi yerinə yetirilməsinə mane olan, müəllim-şagird ünsiyyətinə mənfi təsir göstərən, sinifdəki ümumi intizam anlayışına zidd olan davranışlar ümumiyyətlə sinifdə arzuolunmaz davranışlar adlanır. Arzuolunmaz davranışların tərifi və intizam strategiyalarının nəzəri əsasları araşdırıldıqda fərqli yanaşmaların olduğu müşahidə edilir.

Müəllimlər şagirdlərdə müsbət və mənfi davranışların formalaşmasında mühüm amildir. Əgər davranışlar öyrənmə yolu ilə əldə edilə və öyrənmə yolu ilə dəyişdirilə bilərsə, müəllim və valideynin bu mövzuda böyük məsuliyyəti var.

Gümüzdə bəzi məktəblərdə şagirdlərin davranışlarında ciddi pozuntular müşahidə olunur. Belə ki, məktəb qapıçıları məktəbə psixotrop maddələrin daxil olmasına şərait yaradır. Hətta bu maddələri uşaqlara təbliğ edib satanlar da var. Məktəblərdə hər cür şəraitin yaradılsa da məktəblilər bu pis əməllərə qurşanır. Bu şəbəkədirmi? Buna kimlər və niyə şərait yaradır? SİA mövzu ilə bağlı ekspertlərin fikirlərini öyrənib.

Bu gün dünyanın əksər ölkələrini ciddi şəkildə təhdid edən asılılığın ən çox müzakirə olunan növü psixotrop maddələrdən asılılıqdır. İlk öncə isə gəlin görək, psixotrop maddə nədir?

Psixotrop maddələr ilk növbədə mərkəzi sinir sistemində fəaliyyət göstərən və beynin funksiyalarını dəyişdirərək qavrayışda, əhval-ruhiyyədə, şüurda və davranışda müvəqqəti dəyişikliklərə səbəb olan kimyəvi maddələrdir.



**Vəkil Turan Abdullazadə:** "Cinayət qanunvericiliyinə əsasən, yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma və eyni zamanda narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına (istifadəsinə) təhrik etmə cinayət məsuliyyətinə səbəb olur. Qeyd etdiyiniz hallarla bağlı əgər hansısa qapıçı (mühafizəçi) narkotik vasitələri satanlarla əlbirdirsə və məktəbə qəsdən bilə-bilə psixotrop maddələrin daxil olmasına şərait yaradırsa, eyni zamanda buna dair əsaslı faktlar mövcuddusa bu barədə cinayət təqibini həyata keçirən hüquq mühafizə orqanlarına məlumat vermək mümkündür. Bu yaxınlarda Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin qanunla narkotik vasitə və psixotrop maddələrin dövriyyəsinə qarşı mübarizə daha da gücləndirilmiş, cinayət məcəlləsində bu cinayət əməllərinə dair nəzərdə tutulan cəzalar (sanksiyalar) sərtləşdirilmişdir.

Son dövrlər narkotiklərlə mübarizə tədbirləri artırılsa da, təəsüf ki, yenə də bu cür mənfi hallara rast gəlmək mümkündür. Hesab edirəm ki, həm məktəbin müdriyyəti, həm də valideynlər bu məsələdə ayıq-sayıq olmalıdır. Uşaqlar əhalinin daha müdafiəsiz, həssas qrupuna aid olduğu üçün onların narkotik tacirlərinin "toruna" düşməsi an məsələsidir. Ona görə də bu məsələdə həm hüquq mühafizə orqanları, həm təhsil müessisəsi, həm də valideynlər maksimum diqqətli olmalı və məktəblilərin bu cür bədbəxt hadisələrdən sığortalanması üçün maarifləndirmə işləri aparılmalıdır.

Sualınıza cavab olaraq bildirirəm ki, Cinayət Məcəlləsinin 234.3-1-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma,- dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Həmin Məcəllənin 236.1-ci maddəsinə əsasən narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə- iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə c?zalandırılır. Eyni hərəkətlər, bilə-bilə yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə- beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Məktəblərə psixotrop maddələrin daxil olmasıyla bağlı iddialarla mən də tanışam. Amam bu barədə əlimdə hər hansı fakt yoxdur. Əgər ortada iddia varsa, mütləq araşdırılmalı, bununla bağlı cəmiyyətə açıqlama verilməlidir. Bu məsələdə ictimaiyyət hüquq-mühafizə orqanları ilə əməkdaşlıq etməlidir. Çünki söhbət gələcəyimiz olan övladlarımızdan gedir. Onların taleyi hamını narahat etməlidir.



Hesab edirəm ki, Azərbaycanda məktəblərə nəzarət mexanizmi çox zəifdir. Kənar şəxslərin asanlıqla təhsil ocaqlarına daxil olması barədə tez-tez eşidir, çoxlu xəbərlər oxuyuruq. Üstəlik, məktəblilər özləri də kəsici-deşici alətlərlə məktəbə daxil ola bilirlər. Şagirdlər arasında bıçaqlanma hallarının artması da bununla bağlıdır.

Uşaqların təlim-tərbiyəsi ilə təkcə məktəb deyil, həm də ailə, cəmiyyət məşğul olmalıdır. Müvafiq dövlət qurumları bu cür məsələlərə həssas yanaşmalıdır. Cəmiyyəti bu işlə mübarizəyə səfərbər etmək lazımdır. Məşhur atalar sözündə deyildiyi kimi, od olmasa, tüstü çıxmaz. Əgər od varsa, onu dərhal söndürmək lazımdır".



**Təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi:** "Çox təəssüflər olsun ki, bu gün Azərbaycan məktəblərində tam hamısını əhatə etmirəm, amma müəyyən bir hissəsində psixotrop, eyni zamanda narkotik maddələrin satışı geniş vüsət alıb. Yəni, burda təəssüflər olsun ki, bəzən şagirdlərdən daşıyıcısı kimi və yaxud da vasitəçi kimi istifadə olunur.

Eyni zamanda bəzi məktəblərdə qapıçı funksiyasını yerinə yetirən şəxslər var ki, onların vasitəsilə bu işlər həyata keçirilir. Əlbəttə məktəbə sırf narkotikanın ayaq açması ürəkaçan vəziyyət deyil. Ona görə düşünürəm ki, bu barədə hər bir məktəb rəhbərliyi müvafiq olaraq bu hal olarsa, aidiyyəti qurumlara məlumat verməlidirlər. Çünki burada şagirdlərdən müəyyən şəxslər tərəfindən daşıyıcı kimi istifadə olunur. Hətta deyərdim ki, bunlar bir şəbəkədirlər. Bunların bir nömrəli hədəfi və məqsədi də şagirdlərin sırf bu istiqamətdə prosesə cəlb olunması və yaxud daha çox aludəçiliyinin yaradılmasıdır ki, onlar daha geniş satış imkanı qazana bilsinlər.

Əlbəttə hesab edin ki, 1 milyon 900 minə yaxın şagird var. Yəni bu 1 milyon 900 minə yaxın şagirdin ən azı 9-10 mininə zərər vursalar cəmiyyət üçün faciə deməkdir. Yəni bizim gənclər zəhərləyirlər. Bunun qarşısı təcili alınmalıdır. Kimlər və niyə şərait yaradırlar, açığını desəm bu barədə bir bilgim yoxdur. Amma onu bilirəm ki, bu prosesin başında dayanan yəqin ki, narkotik satışdan daha çox gəlir əldə etmək istəyən şəxslərdir. Eyni zamanda bunlar bir şəbəkədirlər ki, bu addımı atırlar".

***Ayşən Vəli***

# Betonlaşan şəhər

***Bakı şəhərindən danışmaq istəyirəm. Gözəllər gözəli bu şəhərdən. Günü-gündən hüsnünə min naxış vurulan, qədimliyi ilə müasirliyi harmoniya yaradan şəhərdən. Dünyanın ən məşhur şəhərləri ilə müqayisəolunacaq səviyyədə olan şəhərdən. Son illərin möhtəşəm tikililəri ilə Avropanın heyrət etdiyi, axın-axın turistlərin xoş təəssüratı olan şəhərdən...***

Dəniz gözlü Bakımızdan danışmaq istəyirəm. Küləkləri saçlarını dalğalandıran, gözəlliyinə gözəllik qatan, füsunkarlığını artıran şəhərdən. Milyonlarla ömürlərin şəhərindən danışmaq istəyirəm. Ömürlərə şahid şəhərdən, yaşlısıyla yaşlı, gənci ilə gənc şəhərdən.

Paytaxt şəhərimizdən, birinci şəhərimizdən danışmaq istəyirəm... Bu şəhər gözəlliyin qoynunda min rəngə bürünüb. Lakin bu min rəngin hamısı bu şəhərin betonlaşan hüsnünün rəngləridir. Bu rənglərin min birincisindən-yaşıldan, Bakımızın yaşıl rəngindən söz açmaq istəyirəm...

### Yaşıl rəng çox yaraşar bu şəhərə

Çox az yaşıllığı var Bakımızın. Betonlaşdırıblar bu şəhəri sahibkarlar, arxitektorlar, inşaatçılar, mühəndislər, xüsusilə də şirkət sahibləri. Fikirləri qalıb hündür mərtəbəli binaların təcili tikilməsində ki, satışını həyata keçirələr, mənfəətlənələr. Bu şəhərin qoynuna gündən-günə hündürmərtəbəli binalarla "beton naxışlar" vurublar. O qədər "naxış" ki, yan-yana, nəfəs-nəfəsə binalar sanki bir-birinin üstünə yıxılacaqlar...

Günəşə doğru yol alır bu binalar. Günəşin də gücü çatmır dan yerindən boylanıb bu şəhəri işığına, istisinə bürüməyə. Qoymur göydələnlər, çoxmərtəbələr, arxasında, qarşısında gizlədir Günəşi. Nəfəs-nəfəsə binalar pəncərələrimizdən əlimizi uzatsaq qonşunun pəncərəsinə çatacaq dərəcədədir. Kəsiblər insanların pəncərəsinin qarşısını bu binaları inşa edənlər. Təmiz havadan, gün işığından məhrum ediblər insanları. Pəncərələrindən yalnız betonlara baxmağı nəsib ediblər bu şəhərin sakinlərinə...

Nə bitir bu betonlaşma, nə də tükənir. Yağışdan sonrakı göbələklər kimi artır hər gün, hər saat. Betonlaşır bu şəhər, rəngli-rəngli betonlardan ibarət olur. Sağımız beton, solumuz beton, yolumuz beton, qarşıda beton, döngədə beton, nə qədər beton axı...

Bu şirkətlər tikintini planlaşdıranda-ağacları kütləvi şəkildə qırıb, yerində bina ucaltmağa başlayanda o layihələrə baxanlar olubsa, hər birində abadlıq, yaşıllaşdırma ilə bağlı hissəsi də görüblər. Lakin beton mərtəbələr səmaya yüksəldikcə yaşıllıqlar o mərtəbələrdən çox-çox aşağılarda unudulmuş rəngə, yada düşməyən işə çevrilir. Bir təhər, alayarımçıq istifadəyə verilən binalarda şirkət sahiblərini tapa bilmirsən ki, sözünü deyəsən. Yoxa çıxırlar, gözə görünmürlər. Axı haqsızdırlar, işləri yarımçıqdır. Əksər çoxmərtəbəli binaların lahihəsi yarımçıqdır, sakinlər narazıdır. Həyətlərdə nə oturmağa bir oturacaq qoyulub, nə uşaqların əylənməsi üçün qurğu. Nə də bir yaşıllıq salınıb. Son illərdə Memarlıq və Arxitektura Komitəsi tərəfindən qaydaların hazırlanmasına və ümumi tikintinin 25 faizindən az olmayaraq yaşıllıqların olması tələbinə baxmayaraq sahibkarlar 1 santimetrə də qənaət edərək ondan gəlir qazanmaq uğrunda mübarizə aparırlar. Onlar yeni binalar inşa etməyə, yeni mənfəətlər ardınca gedirlər. Arxada qalanlar isə yarımçıq işləri özləri tamamlamalıdırlar. Onlar belə düşünürlər.

### Mən bu yaz baharı bu şəhərdə görmədim

Çox səbrsizliklə gözləyirdim baharı. Cansıxıcı qışın ardınca günəşin ilıq hənirtisini duyub, ağacların çiçəklərindən, yarpaqlarından bir çələng hörmək istəyirdim, söz çələngi. Martın 20-si yaz gəldi yurdumuza, yaza məxsus olmayan isti günlər, həftələr ötdü, lakin bahar gəlib çıxmadı ki, çıxmadı. O qədər qəribəmə gəldi ki, İlahi, ətrafda niyə bahar hiss olunmur. Mən nə üçün bir çiçəkli ağac görə bilmirəm. Yoxsa bahar gecikib? İnanın, evdən işə qədər olan məsafədə mən bir çiçəkli ağac görə bilmədim. Həmin ərəfədə şəhərimizin başqa bir yerinə qonaq getmişdim. Orada həyətdə bir neçə çiçəkli ağac gördüm. Sanki mənə dünyanı verdilər, sən demə bahar çoxdan gəlibmiş, mənim xəbərim yoxmuş. Dərhal yaz haqqında bir esse yazdım. Lakin bu esse mənim öz yolum üstündə yox, başqa məhəllənin baharı əsasında yarandı. Mənim kimi də yüzlərlə insan o məsafədə baharı görə bilmədilər. Çünki ətrafımız yalnız betonlardan ibarətdir. Olan-qalan az sayda yaşıllıqlar da bu beton hündürmərtəbələrin ya o üzündə, ya bu üzündə qalır. Baxır qismətə ki, sənin yolun haradan keçir və sən o ağacları görə biləcəksən, ya yox.

İnsafən parklarımız güllü-çiçəklidir. Lakin insanlar vaxt tapa bilirlərmi o gözəllikləri görməyə? Səhərdən axşamadək işdə olan insan parklardakı gözəlliklərdən də məhrum olur. Beləliklə yalnız betonlara baxmaq məcburiyyətində qalır.

Düşünürsən ki, axı niyə insanları yaşıllıqlardan məhrum edirlər. Kimlərinsə mənfəəti xatirinə minlərlə insan nə üçün sadəcə betonlar arasında yaşamalıdır. Axı onların hüquqları pozulur. Olmaz ki, hər kəs işinə məsuliyyətlə yanaşa? İnşa etdiyi binaların yaşıllığı ilə bağlı layihələrdə göstərilənlərə riayət edə? Axı belə olarsa, heç betonlar da gözə gəlməz. Onların qarşısını yaşıllıqlar kəsər, rənginə rəng qatar. Məsələn, baxırsan ki, yeni tikili binadır, yolboyu uzatdıqca uzadıb aparılıb haradək. Qarşısında da səki, səkinin kənarları boş. Bu səki boyu ağaclar əkilsə, nə olar görəsən? Və yaxud da yeni binaların betonlaşmış həyətlərinə ağaclar əkilsə, bunun nəyi pis olar ki? İnsanların gözü gözəllik görər, həm də təmiz hava udarlar.

Yaşıl rəng həm də bol oksigendir

Bəli, yaşıllıq nə qədər zəngin olarsa, oksigen də bir o qədər bol olar. Biz nə edirik? Yaşılı ləğv edib, üzərində binalar tikir, hər tərəfi betonlarla əhatə edirik və özümüz üçün real ölüm hazırlayırıq.



Bir hündürmərtəbəli binanın ətrafında ən azından 5-10 ağac yoxdursa, həmin binalarda yaşayan yüzlərlə insanın sağlamlığından söhbət gedə bilərmi? Lakin bəzən belə binaların ətrafında bir ağac belə olmur. Sanki gözlərimiz bu betonlaşmaya öyrənib, yaşıl rəngi ağlımıza belə gətirmirik. Səsimizi qaldırmırıq, həyəcan təbilini çalmırıq, özümüz bir yana, gələcək nəsillərimiz üçün təhlükəni uzaqlaşdırmırıq. Sadəcə bu, belə də olmalıdır kimi həyatımıza davam edirik. Sahibkarlar da bundan yetərincə istifadə edirlər.

Bu şəhərə niyə yağış yağmır, düşünən varmı? Çünki bu şəhər yaşıllıq qıtlığı yaşayır. Yağışın çox yağma səbəbi yaşıllıqlardır, onların yaratdığı rütubət, buxarlanmadır. Yağışsız, yaşıllıqsız, küləkli şəhərdə insan sağlamlığı yalnız təhlükə qarşısında ola bilər.

Rayonlarımızda hər kəs Bakıdan giley edir, deyir ki, aşı, orada nəfəs almağa hava tapa bilmirsən. Bunun günahı Bakıda deyil, günah yaşıllıqlara qarşı çıxanlardadır. Təmiz havanı, bol oksigeni, yağışı, sərinliyi yaşıllıqlar yaradır. Bu şəhərdə yaşayan insanların bəxti ondan gətirib ki, burada dəniz var, yoxsa bu qədər yaşıllıq qıtlığı ilə hansı problemlərlə üzləşərdilər, Allah bilir. Elə yetərincə üzləşirik də. İnsanların bronxial astma, ürək çatışmazlığı, ciyər problemləri bu şəhərin yaşıla aclığındandır. Belə gedərsə, qarşıda insanları nələr gözləyir, bu barədə düşünmək lazımdır. Nə qədər ki, gec deyil ağac əkməyə başlamalıyıq...

### Bu gözəl şəhərə yaşıl rəng qataq...

Həqiqətən bu şəhər çox gözəldir, müasirdir, inkişaf edir hər gün. Bu şəhər adi şəhər deyil, özünəməxsusluqları ilə seçilən şəhərdir. Qədimdir, həm də müasirdir. Dünəni yaşadılan, bu günü gözoxşayan, heyrətamiz mənzərəli, gözəlliyi ilə fəxr etdiyimiz şəhərdir. Bu şəhər rəngli şəhərdir. Son illərin möhtəşəm tikililəri bu rənglər palitrasını daha zənginləşdirib. Dövlət Bayrağı Meydanı, Heydər Əliyev Mərkəzi, Alov Qüllələri, Beynəlxalq Muğam Mərkəzi, Milli Gimnastika Arenası, Milli Olimpiya Stadionu, Su İdman Mərkəzi və saydıqca saya biləcəyimiz onlarla bina füsunkarlığıdır bu şəhərin. Rəngləridir bu şəhərin. Bu rənglərin içərisində isə yalnız yaşıl azlıq təşkil edir. Hansı ki, yaşıl bu rənglərin hər biri ilə gözəl harmoniya təşkil edər, həm gözəlliyə, həm də sağlamlığa xidmət edə bilər.

Demirik ki, ağaclar əkilmir. Əkilir, aksiyalar, iməciliklər keçirilir, bağlar salınır, lakin yaşıl rəng azlıq edir bu şəhərə. Çünki bu şəhər yaşıllaşmaqdan çox betonlaşır. Biz bu çür möhtəşəm binaları inşa edənləriksə, göydələnləri buludlara çatdıranlarıqsa, nədir bizim əlimizdə yaşıl rəngi artırmaq?..

Bu gözəl şəhər yaşıl rəngə ehtiyaclıdır. Onun hər rəngdə libası var, yaşılın da istəyir. Gəlin bu doğma, əziz şəhərimizin istəyi naminə onu yaşıl rəngə qərq edək. Bu şəhəri daha da betonlaşmağa qoymayaq. Çünki ona yaşıl rəng çox yaraşar...

***Mətanət MƏMMƏDOVA***

# Şəhid ailələri və qazilərə qayğı dövlət siyasətinin əsas prioritetidir

***Hər bir dövlət və cəmiyyət üçün hərbi əməliyyatlarda iştirak edən şəxslərin müharibələrdən sonra mövcud durumu, şəhid və qazi ailələrinin sosial-psixoloji vəziyyəti önəmlidir. Bu kimi çağırışların öhdəsindən, məhz sözün əsl mənasında, bütün parametrlərinə görə sosial dövlət kriteriyalarına cavab verən və siyasətində əsas amil vətəndaş olan dövlətlər gəlir. Azərbaycanda Qarabağ müharibəsi əlillərinə, veteranlarına və şəhid ailələrinə göstərilən yüksək dövlət qayğısının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub.***



## *İlham Əliyev: "Mən bütövlükdə deyə bilərəm ki, bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur"*

Ümummilli Liderin bu təbəqədən olan insanlara göstərdiyi qayğı, bu istiqamətdə yürütdüyü dövlət siyasəti onun layiqli davamçısı Prezident İlham Əliyev hər zaman 44 günlük Vətən müharibəsi zamanı döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi zamanı həlak olmuş və itkin düşmüş hərbi qulluqçulara, erməni hərbi təxribatı nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlara, şəhidlik zirvəsinə ucalan hər bir şəhidin ailəsinə, qazilərimizə diqqət və qayğısını heç zaman əsirgəməmişdir. Sağlamlıqlarını torpaq uğrunda itirən Qarabağ əlillərinin mənzil-məişət şəraitləri yaxşılaşdırılır. Şəhid ailələri və əlillərə mütəmadi olaraq yeni mənzillər, avtomobillər verilir. Onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və lazım gələndə isə müalicə olunmaq üçün xarici ölkələrə göndərilirlər. Bir sözlə, dövlətin bu təbəqəyə göstərdiyi qayğı göz önündədir və il-bəil artmaqdadır.

### "BU GÜNƏ QƏDƏR BU KATEQORİYADAN OLAN 10 MİNƏ YAXIN İNSAN MƏNZİLLƏRLƏ TƏMİN EDİLİB"

Bu gün dövlətin şəhid ailələri və müharibə veteranlarına diqqət və qayğısı Azərbaycanda tam fərqli formadadır. Bunu biz digər dünya ölkələri ilə müqayisə etməklə görə bilərik. Çünki bizdəki yanaşma çox spesifik formadadır. Şəhid ailələri, müharibə veteranlarına dövlətin maddi dəstəyi ilə yanaşı mənəvi dəstəyi də ən yüksək səviyyədədir. Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsi zamanı şəhid ailələrinə, Qarabağ müharibəsinin iştirakçıları və qazilərə göstərilən dövlət qayğısından danışaraq bildirib ki, bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur və bu kateqoriyadan olan insanlar üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən davamlı olaraq müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının tikilib istifadəyə verilməsi bunun əyani təsdiqidir: "Mən bütövlükdə deyə bilərəm ki, bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur. Çünki dünyada bir çox ölkələr müharibə şəraitində olublar. O ölkələrin təcrübəsini biz bilirik, öyrənirik. Görürük ki, Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət doğrudan da nümunəvi sayıla bilər. Çünki elə təşəbbüslər irəli sürülür ki, başqa ölkələrdə biz buna rast gəlmirik. Misal üçün, şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən mənzillərin verilməsi. Bu, bizim təşəbbüsümüz idi. Bu günə qədər bu kateqoriyadan olan 10 minə yaxın insan mənzillərlə təmin edilib. Minik avtomobilləri verilir, 7400 avtomobil verilib. Növbədə duranlar, yəni Birinci Qarabağ müharibəsinin iştirakçıları və qaziləri artıq yaxın gələcəkdə tam təmin ediləcəklər. Təkcə keçən il Birinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və qaziləri evlərlə təmin edilib. Onlardan 850 nəfəri mənzillərlə təmin edilib, İkinci Qarabağ müharibəsinin iştirakçıları, yəni qaziləri və şəhid ailələri, onlara da 750 mənzil verilib, bu proses davam etdirilir. Hesab edirəm ki, Birinci Qarabağ müharibəsində iştirak etmiş bu kateqoriyadan olan insanlara bəlkə də iki il ərzində, tam, yəni növbədə duranlara mənzillər veriləcək. İkinci Qarabağ müharibəsində, həmçinin yaxın bir neçə il ərzində bu şərait yaradılacaq".

Prezident müsahibə zamanı bu həssas kateqoriyadan olan insanlara göstərilən qayğının sırf Azərbaycanda aparıldığını bildirib: "Yəni, bir daha demək istəyirəm ki, bu, sırf bizim təşəbbüsümüzdür. Biz bunu heç yerdə görməmişik, bu təcrübəni heç yerdən gətirməmişik. Sadəcə olaraq, bu həssas kateqoriyadan olan insanlara müəyyən dərəcədə təsəlli vermək və onların dərdinə şərik olmaq üçün biz bu addımı atırıq. Əlbəttə, bu, böyük vəsait tələb edir. İndi hər kəs bilir ki, bir mənzilin qiyməti neçəyə başa gəlir və bu, büdcə üçün böyük bir yükdür. Amma biz bu yükün altına girmişik və sona qədər bu işi aparacağıq, bu kateqoriyadan olan ta axırıncı insan mənzillə, avtomobillə təmin olunana qədər bu məsələ ilə məşğul olacağıq".

Göründüyü kimi, şəhid ailələrinin, müharibə əlillərinin problemlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsi olaraq 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572 mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə təqdim edilib. Dövlətimizin başçısının 2021-ci il 25 yanvar tarixli Sərəncamı ilə bu kateqoriyalardan olanlara 2021-2025-ci illərdə 11 min mənzil və ya fərdi evin verilməsinin nəzərdə tutulması proqramın daha da genişlənməsinə imkan verdi. Bunun nəticəsi olaraq, 2021-ci ildə üç il əvvələ nisbətən 5 dəfə çox olmaqla 3 min mənzil şəhid ailələrinə və müharibə əlillərinə verilməsi proqramı icra olundu. Beləliklə, ümumilikdə ötən dövrdə 12300 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib. Eyni zamanda, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri uğurla davam edir. 2021-ci ildə daha 164 nəfər müharibə əlili minik avtomobili ilə təmin edilib və bu günədək 7400 müharibə əlilinə avtomobil verilib.Zəfərlə başa vurduğumuz 44 günlük Vətən müharibəsindən sonra - postmüharibə dövründə şəhid ailələrinin, müharibə əlillərinin təqaüdlərində ciddi, orta hesabla 60 faiz artımlar edildi, yeni təqaüd növləri təsis olundu. Əməkhaqqında ciddi artımlara uyğun olaraq 2020-ci ilin əvvəlindən pensiyalar indeksləşdirilərək 16,6 faiz, 2021-ci ilin əvvəlindən 11,4 faiz artırıldı və bu artımlar 1 milyon 100 min pensiyaçını əhatə etdi. Ümumilikdə, 2018-2021-ci illərdə sosial təminat növləri, yəni pensiya, müavinət, təqaüd, ünvanlı dövlət sosial yardımı üzrə illik xərclər 2,4 milyard manat və ya 60 faiz artaraq 6,4 milyard manata çatıb.

### YARALANANLARIN VƏ ŞƏHİD AİLƏLƏRİNİN TƏMİNATINA DƏSTƏK FONDUN - "YAŞAT" FONDUNUN 1 İLİ

Qazi və şəhid ailələri haqqında danışarkən, əlbəttə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 8 dekabr 2020-ci il tarixində "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında" Fərmanı ilə "YAŞAT" Fondu təsis edilməsinə də diqqət yetirmək lazımdır. "YAŞAT" Fondunun hesabına fəaliyyət göstərdiyi dövrdən bu günə qədər 36 995 025.16 manat vəsait mədaxil olub. Ölkə ərazisində 2 881 şəhidin ailə üzvləri, habelə 3100 yaralı olmaqla ümumilikdə 14 579 şəxslə görüş keçirilib, ehtiyacları qeydə alınıb, həmin şəxslərin müraciətinin icra olunması üçün öhdəliklər götürülüb.

Fondun fəaliyyət istiqamətləri üzrə 23 257 853.41 məbləğində vəsait xərclənib. Fond tərəfindən 3652 şəhid ailəsi üzvü və yaralının məişət şəraitinin yaxşılaşdırılmasına, 37 şəhid ailəsi üzvü və yaralının təhsil haqqının, 1004 şəhid ailəsi üzvü və yaralının istehlak kreditlərinin, 1319 şəhid ailəsi üzvü və yaralının isə tibb xidmətlərin ödənilməsinə vəsait ayrılıb.Eyni zamanda indiyə qədər dövlətimiz tərəfindən 89 Vətən müharibəsi qazisi müayinə, müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilib, onlardan 26-sı sağalaraq geri qayıdıb. İndiyə kimi bu Fonda 65 milyona qədər vəsait toplanıb ki, həmin vəsaitdən 45 milyon manat şəhid ailələrinə və qazilərə xərclənib. Ötən il dekabrın 8-də - Vətən müharibəsindən sonra şəhid ailələrinə və yaralılara dəstək məqsədilə ASAN Xidmətin nəzdində "YAŞAT" Fondunun yaradılmasının 1 ili tamam olur. Fonddan verilən hesabatda deyilir ki, 2021-ci il dekabrın 2-dək Fonda 65 milyona yaxın vəsait daxil olub. 2916 şəhid ailəsi üzvləri və 4946 yaralı olmaqla ümumilikdə 16 min 348 nəfərlə görüş keçirilib və ehtiyacları qeydə alınıb.10 min 781 şəxsin 15 min 644 müraciəti icra olunub.

Şəhid ailələrinin və yaralıların ehtiyaclarına 49 milyon 54 min 136 manat 86 qəpik pul xərclənib. 15 milyon 719 min 626 manat 91 qəpik hələlik istifadə olunmamış qalıb. Xərclənən vəsaitdən 32 milyon 173 min 789 manat 50 qəpik məişət şəraitinin yaxşılaşdırılmasına, 445 min 228 manat 51 qəpik təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafına, 5 milyon 395 min 854 manat 57 qəpik istehlak kreditlərinin və başqa borc öhdəliklərinin qarşılanmasına, 11 milyon 39 min 264 manat 28 qəpik isə müalicə və psixoloji dəstək xərclərinin ödənilməsinə sərf olunub. Təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri istiqaməti üzrə şəhid ailə üzvlərinin 137 və yaralıların 20 müraciəti olmaqla ümumilikdə 157 müraciət təmin edilib. Fondun təşəbbüsü ilə təhsil haqqının qarşılanması üzrə təhsil müəssisələri tərəfindən 222 min AZN vəsait qarşılanıb. Təhsil haqqı qarşılanan 63 şəxsin ödənişi Fond tərəfindən, 60 şəxsin isə ödənişi Fondun təşəbbüsü ilə təhsil müəssisələri tərəfindən qarşılanıb. Bundan başqa, martın 18-dən 21-əki "YAŞAT" Fondunun və "Bravo" marketlər şəbəkəsinin birgə təşkilatçılığı ilə şəhid ailələrinə və tibb müəssisələrində yataq şəraitində müalicə alan ağır yaralılara 368 000.00 manat dəyərində 4000 qutu Novruz sovqatı paylanılıb.

Bütün bunlarla yanaşı, qeyd edilməli məqamlardan biri Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli Sərəncamıdır. Sərəncama uyğun olaraq 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. O cümlədən bu il ərzində 3 minədək mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara təqdim ediləcək. Onlardan artıq 470-i verilib. Ümumilikdə indiyədək şəhid ailələrinə, müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə 9670 mənzil və fərdi ev verilib.Bir sözlə, yuxarıda qeyd edilənlər bir daha onu deməyə əsas verir ki, Azərbaycan dövləti üçün İkinci Qarabağ müharibəsinə qədər olduğu kimi, indi də əsas prioritet vətəndaşlara, ələlxüsus şəhid ailələrinə və qazilərə dövlət qayğısının göstərilməsidir.

**RƏFİQƏ KAMALQIZI**

# “Bu gün Türkiyə-Azərbaycan münasibətləri tarixin ən yüksək zirvəsindədir”

***“Azərbaycan tarixi Zəfəri ilə dünyanın diqqətini ədalətin, beynəlxalq hüququn mövcud olduğu ana yönəltməklə yanaşı, kimin haqqın, ədalətin, kimin isə şərin yanında olduğunu ortaya qoydu. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, 44 günlük İkinci Qarabağ müharibəsi həqiqət anı oldu.***



Baxmayaraq ki, həmin vaxtdan bizi ilyarımdan artıq zaman ayırır, günlər keçdikcə tarixi Zəfərimizə gedən yolun təhlilinə, 44 günlük Vətən müharibəsində dövlətimizin qətiyyəti, ordumuzun gücü, qüdrəti, xalqımızın birliyi ilə bərabər, dost, qardaş ölkələrin mənəvi və siyasi dəstəyinin təhlilinə böyük zərurət duyulur. Azərbaycan-Türkiyə, eyni zamanda, Azərbaycan-Pakistan dostluğu, qardaşlığı, tarixi Zəfərimizdən sonra bu birliyin parlamentlər səviyyəsində dünyaya təqdimatı olan Bakı Bəyannaməsi diqqətçəkən, geniş müzakirə olunan və nümunə göstərilən məqamlardan oldu. Qardaş Türkiyə daim Azərbaycanın yanındadır. Tarixi köklərə bağlılıq bu dostluğu, qardaşlığı daha da möhkəmləndirir, liderlərin şəxsi münasibətləri bu əməkdaşlığa yeni çalarlar əlavə edir. Vətən müharibəsinin başlandığı gündən dünyaya ”Azərbaycan tək deyil” mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bununla dostluğumuzun, qardaşlığımızın nə qədər sarsılmaz olduğunu, böyük öndərlər Mustafa Kamal Atatürkün ”Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, Heydər Əliyevin ”Biz bir millət, iki dövlətik” tezislərinin bir daha reallıqda təsdiqinin təqdimatı oldu. İki qardaş ölkənin müttəfiqliyinin təsdiqi olan Şuşa Bəyannaməsində də böyük öndərlərin bu fikirlərinin Türkiyə-Azərbaycan münasibətlərinin əsasında dayandığı xüsusi qeyd olunub”. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

Vüqar Rəhimzadə vurğulayıb ki, xalqlarımızın və dövlətlərimizin biri-birinə necə bağlı olduğunu görmək üçün çox da uzaq olmayan tarixə, şanlı Zəfərimizin fonunda yaşanan mühüm hadisələrə və iki qardaş ölkənin birgə qeyd etdikləri təntənəli mərasimlərə diqqət yetirmək kifayətdir: ”Qeyd etdiyimiz kimi, tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək strateji tərəfdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim yeni prioritetlər istiqamətində möhkəmlənir, bütün sahələr üzrə davamlı inkişafı ilə dünyanın diqqətini cəlb edir. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca önəmli məqamlardır. Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə həmişə qardaş ölkəyə birmənalı dəstək verməyin əsl örnəyini nümayiş etdirir. Azərbaycan Prezidentinin bu günlərdə Türkiyəyə işgüzar səfəri çərçivəsində Rize-Artvin Hava Limanının açılış mərasimində söylədiyi fikirlər də qardaş ölkələrimiz arasında münasibətlərin dününə, bugününə və gələcəyinə bir baxış kimi dəyərləndirilməlidir. ”Biz hər zaman bir yerdəyik - xoş günlərdə, yaxşı günlərdə, çətin günlərdə də və İkinci Qarabağ savaşı bunu bir daha bütün dünyaya göstərdi İkinci Qarabağ savaşı bizim müştərək, ortaq şanlı tariximizdir Savaşın son dəqiqəsinə qədər - Şuşa şəhərində bayrağımız ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi və Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq” söyləyən dövlət başçısı, eyni zamanda, bu reallığı da diqqətə çatdırdı ki, qardaş Türkiyə gündəngünə güclənir, sürətlə inkişaf edir. Bütün bunların təməlində aparılan uğurlu siyasət, Prezident Rəcəb Tayyib Ərdoğanın böyük əməyi, zəhməti vardır. Türkiyə bu gün nəinki dünya miqyasında böyük güc mərkəzinə çevrilib, söz sahibi olub, eyni zamanda, ölkə daxilində də böyük layihələr icra etməyə qadirdir.”

”Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı inkişaf mərhələsi, müttəfiqliyi, ən əsası tarixi Zəfərin sevincini birgə yaşamaları, eyni zamanda, qardaş ölkənin bütün sahələrdə uğurlu inkişafı Türkiyənin sabiq baş naziri Binəli Yıldırımın ”Vaxtilə Əbülfəz Elçibəy dörd vertolyot istədi, Türkiyə onları verə bilmədi. Bu gün isə Prezident Ərdoğan deyə bildi ki, ”Qarabağ sizin haqq işinizdir”. Ərdoğan deyə bildi ki, sizin başınıza gətirilənlər, bizim də başımıza gətirilib. Biz sizin yanınızdayıq. O, bu mesajı bütün dünyaya göndərə bildi” fikirlərinin özündə ehtiva etdiyi bütün məqamların açıqlanmasında yardımçıdır. Reallıq budur ki, bu gün Türkiyə-Azərbaycan münasibətləri tarixin ən yüksək zirvəsindədir. Tarix boyu Türkiyə və Azərbaycan heç vaxt bu qədər bir-birinə yaxın olmayıblar. İstər Vətən müharibəsinin gedişi, istərsə də postmünaqişə dövründə atılan addımlar nümunəvi xarakteri ilə diqqət çəkib. Savaşın getdiyi dövrdə Türkiyənin dövlət strukturları Azərbaycanın qələbəsi üçün bütün sferalarda böyük əzmkarlıq göstərdilər. Türkiyə bütün beynəlxalq təzyiqlərə sinə gərərək Azərbaycana qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədi. Bütün bunlar Ermənistana və onun havadarlarına siyasi baxımdan mesaj idi: Türkiyə hər zaman olduğu kimi, Azərbaycanın yanındadır və onun maraqlarını sonadək müdafiə edəcək”,-deyə YAP Xətai rayon təşkilatının sədri vurğulayıb.

Vüqar Rəhimzadə qeyd edib ki, bu gün Türkiyə və Azərbaycan ötən əsrin 90-cı illərindəki ölkələr deyil. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi sayəsində öz taleyi, siyasəti, münasibətləri və sair mühüm məsələlərlə bağlı olaraq özləri qərar verən, maraq və mənafelərini müdafiə etməyi və istənilən təzyiqə müqavimət göstərməyi bacaran güclü dövlətlərdir: ”Dövlət başçısı İlham Əliyev Türkiyə və Azərbaycan arasında bundan sonra da müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlığın davam etdiriləcəyini bildirir. Postmünaqişə dövründə ordumuzun gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan inamlı addımlar bunu bir daha təsdiq edir. İki qardaş ölkənin keçirdiyi birgə təlimlər də ordumuzun döyüş qabiliyyətinin daha da artırılmasında əhəmiyyətli rol oynayır. Bu mühüm məqamı da unutmayaq ki, cənab İlham Əliyev Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin yaradılması ilə Türk Silahlı Qüvvələrinin Qarabağ bölgəsinə, Azərbaycan torpağına gəlməsini tarixi hadisə adlandırmışdı. Azərbaycan dövləti bütün məsələlərdə Türkiyənin yanında olmasını atdığı hər addımında, irəli sürdüyü təşəbbüslərində, verdiyi qərarlarında təsdiqləyir. İşğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinə start verilən ilk gündən dövlət başçısı İlham Əliyev bu çağırışı etmişdir ki, dost, qardaş ölkələr bu prosesdə də fəal iştirak edəcək, onları yanımızda görmək istəyirik. Hazırda Qarabağın və Şərqi Zəngəzurun bərpası işində ən başlıca rolu Türkiyə şirkətləri oynayır. O da məlumdur ki, ötən ilin oktyabrında istifadəyə verilən, Qarabağın dünyaya açılan hava qapısı kimi dəyərləndirilən Füzuli Beynəlxalq Hava Limanının inşası iki qardaş ölkənin mütəxəssislərinin birgə səyləri nəticəsində həyata keçirildi. Beynəlxalq standartlara tam cavab verən bu aeroportun açılışı Azərbaycan və Türkiyə prezidentlərinin birgə iştirakı ilə keçirildi. İki dost ölkənin müştərək investisiya layihəsi olan ”Dost Aqropark”ın Zəngilanda təməlinin qoyulmasını da xüsusi qeyd etməliyik.”

YAP Xətai rayon təşkilatının sədri qeyd edib ki, Azərbaycan və Türkiyə arasında əlaqələrin bu səviyyədə inkişafı təkcə bu dövlətlərin deyil, həm də regionun ümumi tərəqqisinə, Cənubi Qafqazda sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Bu birlik regionda sabitliyin, təhlükəsizliyin qarantıdır. Birgə reallaşdırılan enerji və nəqliyyat layihələri dövlətləri, xalqları birləşdirir, əlaqələrin inkişafı fonunda çoxtərəfli əməkdaşlığa geniş imkanlar açır. İki ölkənin dostluğunu, qardaşlığını, müttəfiqliyini bundan sonra daha da möhkəmləndirəcək yeni-yeni sənədlərə imza atılacaq.

”Dünya Azərbaycan və Türkiyə qardaşlığının daha bir təntənəsinə şahidlik edəcək” söyləyən Vüqar Rəhimzadə bildirib ki, mayın 26-da Bakıda başlayacaq ”TEKNOFEST Azərbaycan” festivalının proqramı biri-birindən maraqlı müsabiqələrlə, əyləncəli tədbirlərlə zəngindir. Mayın 29-dək davam edəcək festivalın sərgi hissəsində insan zəkasının məhsulu olan son texnoloji yeniliklər nümayiş etdiriləcək. Festival çərçivəsində Azərbaycan Hərbi Hava Qüvvələrinin, eləcə də Türkiyənin ”Türk Yıldızları” və ”Solo Türk” aerobatika komandalarının nümunəvi pilotaj uçuşları təşkil olunacaq. Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı əbədidir, sarsılmazdır, dünyaya nümunədir.

## Baydenin “növbəti səhvi”..?




Bu arada ”The Telegraph” ABŞ prezidenti Cozef Baydenin Birləşmiş Ştatların Tayvanın müdafiəsində iştirak etməyə hazır olması ilə bağlı sözlərini səhv adlandırıb. SİA bu barədə ”rambler”ə istinad edir. Məqalə müəllifləri qeyd ediblər ki, Birləşmiş Ştatlar Tayvanı qorumaq üçün ”heç vaxt öhdəlik götürməyib”. Onlar həmçinin xatırladıblar ki, belə bir qərar Konqresin razılığı ilə verilməlidir.

Qeyd edək ki, Tokioda çıxışı zamanı ABŞ-ın Tayvan ətrafındakı vəziyyətə ”münaqişə olacağı təqdirdə müdaxilə etməyə hazır olub-olmadığı” sualına Amerika lideri müsbət cavab verib. Bundan sonra Çin Xarici İşlər Nazirliyi Baydenin bəyanatı ilə bağlı ABŞ-a etiraz edib. Belə ki, onlar Tayvanın Çin ərazisinin ayrılmaz hissəsi olduğunu xatırladıblar. Bu arada ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincer ABŞ hakimiyyətini Tayvanla bağlı Çinlə toqquşmadan qaçmağa çağırıb.

***Ağasəf Babayev***

## Meyvə-tərəvəz zəhərlənmələri nədən baş verir?

“Tərəvəz zəhərlənmələri, əsasən, pestisitlərlə yetişdirilmiş meyvə-tərəvəzlər nəticəsində baş verir”. Bu sözləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salmanov bildirib.



Onun sözlərinə görə, insanların çoxu meyvə-tərəvəzlərin, göyərtilərin çoxunu sirkəli suda yuyurlar: ”Sirkənin özündə də turşu olduğuna görə bu, kimyəvi zəhərlənməyə yol aça bilər. Ona görə də tərəvəzlərin və göyərtilərin də çay sodası ilə yuyulması daha məqsədə uyğundur. Meyvə-tərəvəzlər yaxşı yuyulub, qurulanmadığı halda mikrobioloji zəhərlənmə baş verə bilər. Çünki əsasən torpaqda yetişən meyvə və tərəvəzlərdə botulizim bakteriyası var. Bu bakteriyada yaxşı yuyulmadığı təqdirdə tərəvəzlərin tərkibində qalır. Ona görə də tərəvəzlər çay sodasında 10-15 dəqiqə saxlandıqdan sonra yaxşı qurudularaq yeyilməlidir. Meyvələrdə isə çiyələk az bir müddətdə su da saxlanılmalıdır. Çünki uzun müddət su da qaldıqdan sonra çiyələk öz görünüşünü itirir ona görə də çiyələyi 5 dəqiqə sodalı suda saxladıqdan sonra yemək daha məqsədə uyğundur. Hazırda bazarda hibrit məhsullar baş alıb gedir. Hibritdə pestisit olmadan əmələ gələn bir məhsul deyil. Pestisitlərin də normadan çox istifadəsi meyvə-tərəvəzlərdə nitratın artmasına gətirib çıxarır. Nitrat zəhərlənməsi də qaçılmazdır. Onun üçündə bunun çıxışı yolu kənd məhsullarına daha çox üstünlük verilməsidir. İnsanlar həmin məhsulun pestisitlərdən kənar yetişdirildiyindən əmin olmalıdır. Belə olduğu təqdirdə də, onu düzgün şəkildə yuyub daha sonra qidalandıqda heç bir zəhərlənmə hadisəsi baş verməz”.

***Banuçiçək Hüseynli***

# "Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir"





Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatı rayonun Qarağan-Şıxlar kəndində 28 may - Müstəqillik Günü münasibətilə "Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir" mövzusunda tədbir keçirib. Tədbirdən öncə Qarağan-Şıxlar kəndindən olan şəhidlərin məzarları ziyarət olunub, üzərinə gül dəstələri düzülüb. Yeni Azərbaycan Partiyasının banisi ulu öndər Heydər Əliyevin və şəhidlərimizin müqəddəs xatirələrinin bir dəqiqəlik sükutla yad edildiyi tədbiri giriş sözü ilə açan Qarağan-Şıxlar kənd ərazi partiya təşkilatının sədri İsa Seyidov dövlətimizin müstəqillik tarixindən danışıb. Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının məsul əməkdaşı Anar Şahmuradov Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra, müstəqilliyin ilk illərində xalqımızın naşı rəhbərlər üzündən üzləşdiyi məhrumiyyətlərdən söz açdı. Ulu öndər Heydər Əliyev olmasaydı ölkəmizi və xalqımızı parçalanmaq təhlükəsi gözləyirdi. Dahi şəxsiyyət Heydər Əliyev ölkədə sabitlik yaratdı, gündəlik həyatı öz axarına qaytardı və Azərbaycanın müstəqilliyini qoruyub saxladı. Müstəqil Azərbaycan dövləti inkişaf yoluna qədəm qoydu. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu müasir dövrün tələbləri çərçivəsində uğurla həyata keçirən Prezident İlham Əliyev Azərbaycanın davamlı inkişafını təmin edərək ölkəmizi Cənubi Qafqazın lider dövlətinə çevirdi. Anar Şahmuradov Prezident cənab İlham Əliyevin xalqımızın və dövlətimizin milli maraqlarına xidmət edən siyasətinə diqqət çəkərək müstəqil Azərbaycanın qazandığı uğurlardan bəhs etdi.Yeni Azərbaycan Partiyasının məsul əməkdaşı Emil Əzizov tədbirdə çıxış edərək müstəqil Azərbaycan dövlətinin dünyada yüksək nüfuz sahibi olduğunu qeyd etdi. Bu gün Azərbaycan dünyanın güclü dövlətlərindən biridir və ölkəmizlə bütün dövlətlər hesablaşırlar.

Tədbirdə çıxış edən partiya fəallarından Məlahət Həsənova və Natiq İbrahimov müstəqil Azərbaycan dövlətinin ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mövcud olduğunu bildirdilər. O da qeyd edildi ki, ölkəmiz cənab Prezident İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində artıq güclü dövlətə çevrilib və ölkəmizin ərazi bütövlüyü təmin edilib. Bu dövləti qoruyub saxlamaq üçün isə Yeni Azərbaycan Partiyasının sıralarında cənab İlham Əliyevin ətrafında birləşmək hər bir vətəndaş üçün ümdə vəzifə olmalıdır.

# YAP Binəqədi rayon təşkilatının ərazi partiya təşkilatının təsis yığıncağı keçirilib



YAP Binəqədi rayon təşkilatının Binəqədi rayonu, Baksol yolu 89 (Unity Company) ünvanında yerləşən ərazi partiya təşkilatının təsis yığıncağı keçirilib. İclasda çıxış edən ərazi partiya təşkilatının üzvü, "Unity Company" şirkətinin direktoru Fikrət Əliyev gündəlikdə duran məsələ barədə üzvlərə məlumat verib. Bildirib ki, gündəliyə əsasən ərazi partiya təşkilatının sədrinin və sədr müavininin seçilməsi müzakirə ediləcək və müvafiq qərarlar qəbul ediləcək. O, dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə regionda və ölkəmizdə reallaşdırılan uğurlu iqtisadi, siyasi, sosial islahatlardan bəhs edib. Rəhbərlik etdiyi şirkətin fəaliyyətindən danışaraq vətəndaşlarımıza göstərilən xidmətin səviyyəsinin günbəgün daha da artdığını vurğulayıb. Ərazi partiya təşkilatının üzvü kimi partiyanın fəaliyyətində yaxından iştirak etdiyini, ictimai proseslərdə bundan sonra da fəal iştirak edəcəyini diqqətə çatdırıb. Ərazi partiya təşkilatının üzvü "Unity Company" şirkətinin meneceri Zərifə Arzumanova çıxış edərək, partiyanın fəaliyyətindən və gənclər siyasətindən danışıb. Ölkəmizdə gənclərin inkişafı üçün atılan addımlardan bəhs edib. Çıxışının sonunda ərazi partiya təşkilatının sədrliyinə Fikrət Əliyevin namizədliyini irəli sürüb. Təklif səsə qoyularaq yekdilliklə qəbul edilib.



F.Əliyev çıxışında göstərilən etimada görə, təşəkkür edib və sədr müavini kimi Zərifə Arzumanovanın namizədliyini təklif edib. Təklif səsə qoyularaq yekdilliklə qəbul edilib. Z.Arzumanova çıxış edərək göstərilən etimada görə təşəkkür edib.YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov iclasda yekun nitq söyləyərək, YAP-ın yaranma zərurətindən, 1992-ci ildə ölkədəki ziddiyyətli ictimai-siyasi proseslərdən, Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasından danışıb və partiyanın VII Qurultayında qəbul edilən qərarlar və struktur dəyişiklikləri barədə məlumat verib. Ölkəmizdə həyata keçirilən və müxtəlif sahələrin inkişafını təmin edən məqsədyönlü islahatlardan danışarkən bildirib ki, ölkəmizdə dövlət başçısı, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu inkişaf strategiyasına paralel olaraq partiyanın inkişafı məqsədilə mühüm islahatlar həyata keçirilir. V.İsmayılov, həmçinin Vətən müharibəsində qazandığımız inamlı qələbədən, torpaqlarımızın işğaldan azad edilməsindən bəhs edib. Ərazi partiya təşkilatının daha da uğurlu və səmərəli fəaliyyət göstərməsi, partiya üzvləri ilə əlaqələrin bundan sonra da yüksək səviyyədə qurulması üçün müvafiq tapşırıq və tövsiyələrini verib. Yeni seçilən sədr və müavinini təbrik edərək, partiya üzvlərinə uğurlar arzu edib.

***Zümrüd BAYRAMOVA***

# YAP Samux rayon təşkilatında 1-ci Rəqəmsal İdeya Müsabiqəsinin iştirakçısı ilə görüş keçirilib

***Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatında 1-ci Rəqəmsal İdeya Müsabiqəsində 2-ci yeri qazanmış komandanın rəhbəri İlahə İlham qızı Əsgəova ilə görüş keçirildi. Görüşdə YAP Samux rayon təşkilatının 1-ci Rəqəmsal İdeya Müsabiqəsinin qeydiyyatından keçmiş fəalları iştirak etdi. Bildiyimiz kimi, may ayının 19-da Bakı Ali Neft Məktəbində Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi və Ali Neft Məktəbinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş 1-ci Rəqəmsal İdeya Müsabiqəsi keçirilib.***

Həmin müsabiqədə YAP Samux rayon təşkilatının fəallarından biri Əsgərova İlahə İlham qızı Respublika üzrə seçilən 120 nəfər namizəddən biri olmuşdur. Müsabiqədə seçilən iştirakçılar 8 saat ərzində xüsusi mentorlarla komanda katalizatoru, hakaton, intellekt rinqi, beyin fırtınası, ideyalar sərgisi və layihələrin təqdimatından təşkil olunmuş, komanda yarışlarında ən yaxşı olmaq üçün mübarizə aparıblar. İlahə Əsgərovanın rəhbərlik etdiyi komanda final mərhələsinədək mübarizə aparmış və 2-ci yeri qazanmışlar. Bu münasibətlə təşkil edilmiş görüşdə YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov İlahə Əsgərovanı təbrik edərək vurğulayıb ki, Azərbaycanda ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət gənclər siyasəti Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu siyasətin nəticəsində ölkəmizdə yüksək intellektli, vətənpərvər, bilikli və bacarıqlı gənc nəsil formalaşıb. Onun sözlərinə görə, ölkəmizin ən güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasında da böyük gənclər ordusu birləşib. Bu tipli layihələrin gələcəkdə də davam etdirilməsi gənclərimizin intellektual inkişafı üçün olduqca faydalıdır. Sonra İlahə Əsgərova 1-ci Rəqəmsal İdeya Müsabiqəsi haqqında öz təəssüratlarını bölüşərək tədbir iştirakçılarını maraqlandıran suallara cavab verdi. Görüşün sonunda YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov İlahə Əsgərovaya gül dəstəsi hədiyyə etdi.



# Ukraynadakı müharibə nə vaxt və kimin xeyrinə başa çatacaq?

*Ölkənin baş kəşfiyyatçısı Rusiyanın müstəqil dövlətlərə parçalanacağını və Putinin müqəddəratını proqnozlaşdırıb, Zelenski isə öldürülməsi ehtimalını şərh edib*







ANALİTİK+AKTUAL

***Bu ilin fevral ayının 24-dən başlayaraq Rusiyanın Ukraynada hərbi əməliyyatlara başlaması cari ilin sonuna qədər davam edə bilər. SİA-nın məlumatına ki, bununla bağlı "RBK-Ukraina" Ukraynanın Müdafiə Nazirliyinin Baş kəşfiyyat idarəsinin rəhbəri Kiril Budanova istinadən informasiya yayıb.***

"Dediyim kimi, aktiv faza ilin sonuna kimi maksimal düşüşə doğru azalacaq. Rusiyanın 12 ay müddətində normal müharibə aparması üçün resursları yoxdur", deyən Budanov müharibənin yeganə halda başa çatacağını bildirib: "İşğaldakı ərazilərimiz azad olunduqdan sonra".

Ukraynalı baş kəşfiyyatçı onu da iddia edib ki, hətta Krımı belə geri ala biləcəklər.

### Kiril Budanov: "Bu variantda hər kəs şəxsən Putini ittiham edir və onun yaxın ətrafı deyəcək ki, sözügedən məsələdə Rusiyanın təqsiri yoxdur"

Lakin o, Rusiyanın prezidenti Vladimir Putini də hədəfə almağı unutmayıb. "Müharibənin Kreml və Putin üçün necə başa çatacağı ilə bağlı iki variant var", deyən Budanov fikirlərini belə əsaslandırıb: "Birincisi - Rusiyanın ərazi bütövlüyünün formal saxlanılması ilə siyasi rəhbərliyin dəyişilməsi. Qeyd edirəm - formal. Bu variantda hər kəs şəxsən Putini ittiham edir və onun yaxın ətrafı deyəcək ki, sözügedən məsələdə Rusiyanın təqsiri yoxdur. Silahlı qüvvələrini işğal etdikləri bütün dünya ərazilərindən çıxaracaqlar. İşğal olunmuş ərazilər həmin ölkələrə geri qayıdacaqlar ki, həmin ərazilər prinsipcə onlara da məxsusdur - Gürcüstana, Yaponiyaya, Almaniyaya və s."

### Baş kəşfiyyatçı: "Rusiya iki və daha çox hissələrə parçalana bilər"

"Rusiya bundan sonra sivil dövlət kimi funksiya göstərməyə başlayacaq. Belə desək, hər şeyə əvvəldən başlayacaq. Müəyyən müddətdə bu amil işləyəcək. Sonrasını isə yalnız tarix göstərəcək", deyə ukraynalı baş kəşfiyyatçı bildirib.

Budanov ikinci variantı da önə sürüb və bildirib ki, həmin variant Rusiya üçün çox pis nəticələrə gətirib-çıxara bilər. "Rusiya iki və daha çox hissələrə parçalana bilər", deyən ukraynalı baş kəşfiyyatçı hətta iddia edib ki, ölkənin parçalanan hissələri yeni müstəqil dövlətlərin yaranması ilə də başa çata bilər.

Lakin Ukraynanın Müdafiə Nazirliyinin Baş kəşfiyyat idarəsinin direktoru sözügedən iddialarını önə sürərkən daha bir maraqlı məqam yayılan informasiyalar arasında yer alıb...

### Vladimir Zelenski: "Anlayırdıq ki, əgər bu və ya digər itki yaşanarsa biz həmin prosesə hazırıq"

"Ukrainskaya Pravda" nəşrinin yazdığına görə, prezidenti Vladimir Zelenski müharibə zamanı öldürüləcəyi, həyatına son qoya biləcək hər hansı sui-qəsdin həyata keçəcəyi halda ölkə hakimiyyətinin ehtiyat planı dərhal işə düşəcək. "Bizim qanunvericiliyimizə görə dövlətin kim tərəfindən idarə olunması ilə bağlı müddəa mövcuddur", deyən Ukrayna prezidenti əlavə edib: "Biz hazırlıqlı olmuşuq və bölünmüşük - mən, baş nazir və parlament rəhbəri. Bizdə parlament-prezident respublikasıdır. Anlayırdıq ki, əgər bu və ya digər itki yaşanarsa biz həmin prosesə hazırıq".

Zelenski nazirlər kabinetinin iki hissəyə bölündüyünü bildirib və qeyd edib ki, onlar iki dubldurlar. Belə ki, ölkə həmin nəticələrə görə mühafizə olunmalıdır. Lakin ən maraqlısı budur ki, Ukraynanın prezidenti daha bir etiraf edərək qətlə yetiriləcəyi ilə bağlı mümkünlüyü etiraf edib, lakin öldürüləcəyi halda ölkə rəhbərliyinin hansı qərarlar qəbul edəcəyi ilə bağlı məlumat verməyib.

***Rövşən RƏSULOV***

# "Moskvanın yeni tələblərinə boyun əyənlər"



***Rusiya hökumətinin "dost olmayan dövlətlər" siyahısına daxil etdiyi Avropa İttifaqı ölkələrinin bir çox şirkətləri Rusiya qazının pulunu rublla ödəmək üçün Moskvanın yeni tələblərinə boyun əyirlər.***

SİA TASS-a istinadən xəbər verir ki, bu barədə "Washington Post" yazır. Məqalədə deyilir ki, Avropanın enerji şirkətləri Rusiya prezidenti Vladimir Putinin yeni sistem çərçivəsində təbii qaza görə ödəniş etmək tələblərinə boyun əymək məcburiyyətində qalıblar.

Nəşr hesab edir ki, şirkətlər qazın dayandırılmasından və enerji böhranından qorxduqları üçün bu addımı atıblar.

Nəşr Avropa ölkələrinin Rusiyanın enerji təchizatından asılılığını azaltmaq üçün müxtəlif tədbirləri müzakirə etdiklərini də gizlətmir. Amma məlumdur ki, qısa müddətdə iqtisadi böhrandan qaçmaq mümkün olmayacaq deyə, onlar güzəştə getməyə hazırdırlar.

"Washington Post" bildirir ki, bu, rus rublunun möhkəmlənməsinə səbəb olan amillərdən biri olub. Məlum yazıda Polşa və Bolqarıstanın Moskvanın Rusiya qazının pulunu rublla ödəməyə dair yeni tələblərini yerinə yetirməkdən imtina etdiyinə görə, bu ölkələrə yanacaq tədarükünün dayandırıldığı da bildirilir.

Bununla belə, Avropa İttifaqı ölkələrinin əksəriyyəti şantajın yolverilməzliyi ilə bağlı əvvəlki bəyanatlarından əl çəkməyə və yeni şərtlərlə barışmağa məcbur olublar. Bunu da "Washington Post" bildirir.

***Ağasəf Babayev***

***Müvəqqəti olaraq Rusiya sülhməramlıları kontingentinin (RSK) nəzarətləri altına verilmiş ərazilərimizdə, daha dəqiq desək, hələ də "dqr" və ya "artsax" adlı xülyaları ilə mövcud olacaqlarını sanan separatçı-quldur yığnağının toplaşdığı Xankəndidə vəziyyət yenidən isterik həddə çatıb.***

Sonuncu Brüssel görüşündən sonra bilavasitə Ermənistandakı revanşistlərdən ”cuşa” gələn quldur rejimin ”liderləri” gah ”təhlükəsizlik şurasının” təcili toplantılarını keçirir, gah da bir-birinin ardınca ”artsaxın” heç vaxt Azərbaycanın tərkibində olmayacağını çərənləyirlər. Əslində belə bir həssas məqamda öz lazımsız həyatlarını nə qədər təhlükə altına atdıqlarını dərk etməyən, yaxud dərk etmək istəməyən klounada oyunbazları bir reallığı da qanmırlar ki, artıq onların mövcudluqları yoxdur, sadəcə hava alıb-buraxmaqla məşğuldurlar.

## *Yaxud, separatçı yığnağına "ağıllı olun" xatırlatması*




# “Müzakirələrdən qaçmaq anti-milli fəaliyyətin nəticəsidir”




Son vaxtlar müxtəlif siyasi partiyalarla görüşlər keçirilir, müzakirələr aparılır. Ancaq maraqlı məqam ondan ibarətdir ki, AXCP və Müsavat yenə də ənənələrinə uyğun olaraq proseslərdən kənarda qalmağa üstünlük verirlər. Bu da AXCP və Müsavatın daha böyük iddialarda və hansısa kənar qüvvələrdən asılı olmaları ilə bağlıdır. Məsələ ilə bağlı fikirlərini bölüşən ”Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov ”Səs” qəzetinə açıqlamasında bildirdi ki, biz dağıdıcı müxalifətin kənar qüvvələr tərəfindən idarə olunduqlarına dair fikir səsləndirəndə boğazlarını şişirdirlər ki, biz müstəqilik heç kimin buyruğu ilə oturub-durmuruq: ”Məsəl var, deyərlər, hanı zığzığın, budu zığzığın. Bu gün bütün dünya, hətta Ermənistanın ağıllı başla düşünənləri belə, Azərbaycanın yaratdığı indiki geosiyasi reallığı qəbul edir. Yəni Azərbaycan illər öncə ki, əzgin durumdan qürurlu, mətin, qalib duruma gəlib çatıb və dünya da bunu qəbul etməyə məcbur olub. Bu, təkzibi mümkün olmayan bir reallıqdır və reallığı yaradan da indiki hakimiyyətdir. Xalqın, millətin arzusunda olduğu bu zirvəni fəth edən iqtidarla müzakirələr aparmaqdan qürur duymaq əvəzinə, ondan qaçmaq təbii ki, anti-milli fəaliyyətin bir parçasıdır. Bəs özünə tərəfdaşlar toplamalı olan, hakimiyyət uğrunda mübarizə aparan bir siyasi qüvvə niyə belə bir şansdan yararlanmaq istəmir? Bax, burada xoruzun nəinki quyruğu, bütöv bədəni görünür. Deməli, bu iqtidarın nailiyyətlərini istəməyən, ona kölgə salmaq istəyən qüvvələrin əlində oyuncaqdırlar və ağaları hara desə orada sürürlər. Bunu anlamaq üçün siyasətçi olmaq vacib deyil. Sıravi, ağlı başında olan hər kəs dağıdıcı müxalifətin indiki hərəkətlərini belə basa düşür və başqa cür də ola bilməz”.

***Gülyana***

# Qarabağdakı terrorçular hansı məsafələrdən hədəfimizdədirlər?







## Onların nə qədər hədəfdə olduqlarını səlis ölçülərlə sübuta yetirə bilərik

Və nə qədər gec deyilsə, reallığı dərk etməyə məhkum olduqlarını da unutmamalıdırlar. Bunun üçün isə kifayət qədər əsaslar, sübutlar mövcuddur. Daha doğrusu, el dili ilə desək, azacıq da oyan-bu yan etsələr başları Azərbaycanın dəmir yumruğu altında və bu dəfə birdəfəlik əzilməli olacaq. Əgər inanmırlarsa, ya da gerçəkliyi qəsdən görməməzliyə vururlarsa onların nə qədər hədəfdə olduqlarını səlis ölçülərlə sübuta yetirə bilərik.

SİA xəbər verir ki, lokasiyalar üzrə mütəxəssisləşmiş @AZ_Land_Of_Fire teleqram kanalı maraqlı paylaşımı ilə diqqət çəkib. Beləliklə, Qarabağdakı Azərbaycan Silahlı Qüvvələrinin postlarından Xankəndidəki separatçıların hədəflərinə qədərki əlçatan məsafələri santimetrinə, hətta millimetrinə qədər diqqətə çatdırırıq:

Xankəndidəki ”hərbi kollecə” - 2,760 m.
”Hərbi hissəyə” - 3,555 m.
”Prokurorluğa” - 3,575 m.
”Hökumət binasına” - 3,830 m.
”Prezident sarayına” - 3,895 m.
”Parlamentə” - 4,010 m.
”Hərbi komissarlığa” - 3,845 m.
”Generallar evinə” - 4,535 m.
”Polis departamentinə” - 4,205 m.
”Bələdiyyəyə” - 4,230 m.
”DİN-ə” - 4,660 m.
”Hərbi arxivə” - 4,770 m.
”Hərbi hospitala” - 4,890 m.
”Hərbi akademiyaya” - 4,980 m.

Azərbaycan SQ-ni separatçılarla və qanunsuz erməni hərbi birləşmələri ilə ayıran yaxın postların ortalama məsafəsi - 4,124 m (!)

Qeyd olunanlarla yanaşı, Azərbaycan SQ-nə məxsus müxtəlif artilleriya və raket qurğularının orta atış məsafəsi uzaqlığı:

SAU ”Dana” - 18,7 km.
BM-21 ”Qrad” - 20 km.
”Smerç” reaktiv zenit-raket kompleksi - 70 km.

Göründüyü kimi, kifayət qədər bəs edir, üstəlik, artıq da qalır. Tam məhv edilməmiş separatçı-quldur yığnağı artıq-əksik danışıb bəyanatlar səsləndirməklə görünür, başlarına hansı oyunların gələ biləcəyini unudurlar. Amma şanlı Azərbaycan Ordusu bu unutqanlığı onlara çox qısa müddətdə başa salmaq üçün hazır vəziyyətdədir!

***Rövşən RƏSULOV***

FAKT+REALLIQ!

# Turizm mövsümü başlayıb: Xarici və yerli turistləri cəlb etmək üçün nə çatışmır?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*



## Turizm sahəsində inqilabi dəyişikliklər edilsə, ölkəmiz bu sektordan böyük gəlirlər əldə edə bilər

ANALİZ

***Azərbaycanın təbii-coğrafi şəraiti turizmin inkişafı üçün böyük perspektivlər açır. Son illərdə bu sahəninn inkişafı üçün dövlət səviyyəsində mühüm işlər həyata keçirilib. Lakin qonşu ölkələrlə müqayisədə Azərbaycan turist cəlbində arzulunan səviyyəyə çata bilmir. Buna səbəb müvafiq imkanların olmaması deyil, sadəcə qiymətlərin yüksək olması ilə bağlıdır. Nəticədə həm yerli turistlər, həm də potensial xarici turistlər qonşu ölkələrin ucuz və daha üstün xidmət göstərən turist mərkəzlərinə üz tuturlar. Bu yazıda yaranmış vəziyyətin səbəbləri, nəticəsi və çıxış yollarını araşdıracağıq.***

### Turizm statistikası nə deyir?

2021-ci ildə Azərbaycana 167 ölkədən 792 min turist gəlib. Ötən il turistlərin sayı əvvəlki il ilə müqayisədə cüzi olsa da (0.5 %) azalıb. Azərbaycana gələnlər arasında Rusiya yenə də öndədir. Gələnləri 33 faizi şimal qonşumuzun payına düşüb. Türkiyədən gələnlər 25 faiz, İran turistləri isə 16 faiz təşkil edib. 2021-ci ildə Gürcüstandan Azərbaycana gələnlərin sayı kəskin azalıb. Belə ki, ümumi turistlərin cəmi 8 faizi bu qonşumuzun payına düşüb. Bu isə əvvəlki il ilə müqayisədə 66 faiz azalma deməkdir. Azalmanın əsas səbəbi pandemiya səbəbindən quru sərhdələrin bağlı qalması ilə əlaqədardır. Səudiyyə Ərəbistanından olan turistlərin sayında da 26 faiz azalma qeydə alınıb. Əksinə, Birləşmiş Ərəb Əmirliklərindən gələnlərin sayı 2,2 dəfə artıb.

2020-ci illə müqayisədə Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 53,8 faiz artaraq 35,4 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 43,7 faiz artaraq 159 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 8,9 faiz artaraq 297,7 min nəfər olub.

Yenə də xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı ölkəmizə gələnlərin sayından çox olub. Belə ki, ötən il 975 minə yaxın Azərbaycan vətəndaşı xaricə səfər edib. Bu, o deməkdir ki, xaricə gedənlərin sayı ölkəyə gələn turistlərin sayından 182 min nəfər çox olub. Ötən il İrana gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 80,6 faiz azalmış, Türkiyəyə gedənlərin sayı isə 2,4 dəfə artmışdır.

2021-ci ilin yekunları göstərir ki, pandemiya ötən il də turizm sektorunun inkişafına manee olub. Turizm neftdən sonra Azərbaycana ən çox valyuta gətirən sektordur. Bu baxımdan, quru sərhədlərinin tam açıqlması, ölkəyə turistlərin gəlişi ilə bağlı qaydaların mərhələli şəkildə daha da yumşaldılması məqsədəuyğun olardı. Bu ölkəyə gələn turistlərin sayına birbaşa təsir göstərər.

### Qonşu ölkələr ucuz və yaxşı xidmətlə turistləri cəlb edir

Bu gün Azərbaycanda yerli turistlər daha çox qonşu ölkələrə üz tuturlar. Səbəb kimi hamı birağızdan qiymət amilini önə çəkir. Yerli turizm mərkəzlərində 1 həftəlik putyovkanın qiymətinə Rusiya, Türkiyə, Gürcüstanın nüfuzlu turizm mərkəzlərində azı 2 həftə dincəlmək olar. Nəzərə almaq lazımdır ki, xarici turist mərkzinə putyovkanın qiymətinə gediş-gəliş haqqı da daxildir, o zaman aydın olar ki, Azərbaycanda qiymətlər azı 3 dəfə bahadır.

Məsələn, Türkiyənin ən məşhur turist mərkəzlərindən sayılan Antalyada 1 nəfərlik 1 həftəlik istirahətin qiyməti 400 manatdan başlayır. Şimali Kiprdə isə bu qiymət 300 manatdan başlayır. Bura gəliş-gediş haqqı, qarşılanma-yolasalınma xidməti, səyahət sığortası və gün ərzində 5 dəfə yemək (demək olar limitsiz) daxildir.

Gürcüstan son illərdə minimal qiymətlər və keyfiyyətli xidmətlə qonşu ölkələrin turustlərini cəlb edib. Tbilisidə 3 ulduzlu oteldə qalmaq 1 gün üçün 30 manatdır. Qara dəniz sahilində yerləşən Batumi şəhərində 1 həftəlik istirahət də 250-300 manat arasında dəyişir. Bu qiymətə yemək, idman, ekskursiya və bir çox əyləncələr daxildir.

Rusiyanın turist mərkəzləri də dolub-daşır. Bu ölkə dünyada müalicəvi turzim ölkəsi kimi tanınıb. Soçi, Kislovodsk, Yessentuki, Narzan, Mineralnıe Vodi və s. mərkəzlərdə 14 günlük müalicəvi istirahətin qiyməti 500 manat civarındadır. Buraya yemək, müxtəlif terapiyalar, idman meydançaları, müxtəlif vannaların (günəş, palçıq, bitki dəmləmələri və s) qəbulu, ekskursiyalar daxildir. Bunu böldükdə həftəyə 250 manat edir ki, bu da müalicəni də nəzərə alsaq Azərbaycanla müqayisədə həddən artıq ucuz qiymətdir.

### Yerli turizm mərkəzlərinin qiymətləri "əl yandırır"

Azərbaycanda 3 ulduzlu istirahət mərkəzlərində bir həftəlik istirahətin qiyməti 500 manatdan bahadır. Buraya da, yemək, yol, sığorta xərcləri daxil deyil. Bəzilərində yalnız səhər yeməyi bura daxil edilir. Nəzərə almaq lazımdır ki, turizm bölgələrində ərzaq və sair gündəlik tələbat malları minimum 2 dəfə baha qiymətə satılır.

Qəbələ, İsmayıllı, Lənkəran, Şəki, Xaçmaz, Qusar və sair bölgələrdə 3 ulduzlu otelin gündəlik qiyməti ən ucuz halda 50-100 manat arasında dəyişir. 4-5 ulduzlu otellərdə isə 150-500 manatdan söhbət gedir.

Göründüyü kimi, Azərbaycandakı istirahət mərkəzlərində qiymətlər əhalinin gəlirlərinə adekvat deyil. Məsələn, ayda 300 manat maaş alan vətəndaşın məzuniyyət maaşı ən yaxşı halda 500 manat ola bilir ki, bu məbləğə heç bir normal turizm mərkəzində 1 həftə istirahət etmək mümkün deyil. Bu gün Azərbaycanın turizm mərkəzlərində qanuni və normal məzuniyyət müddətində (21 gün) istirahət etmək üçün 1 nəfər üçün ən azı 2 min manat pul lazımdır. Bu isə maaşı 300-500 manat olan ölkə vətəndaşının yarım illik gəliri deməkdir.

Nəhayət 3-4 nəfərlik ailənin 1 həftəlik istirahəti üçün 2000-3000 manat tələb olunur ki, bu da ölkə əhalinin azı 90 faizindən çoxu üçün praktiki olaraq əlçatan deyil.

### Qiymətlərin enməsi üçün nə tələb olunur?

Ekspertlər hesab edir ki, qiymətin ucuzlaşması üçün, turizm bazarında azad rəqabət təmin olunsa vəziyyət yaxşılaşar. İlk növbədə, turist müəssisələrinin sayı çoxaldılmalı və rəqabət mühiti yaradılmalıdır. Dünyada turizm kampaniyaları elan edilir. Bizdə isə qiymətlərdə endirimə getməmək ona gətirib çıxarır ki, turistlərin sayı kəskin şəkildə azalır. Rayonlarda turizm istirahət mərkəzlərində qiymətlər heç də xidmətin səviyyəsinə cavab vermir. Xidmət məsələsində isə çox böyük problemlər var. Mövcud vəziyyət isə, ölkəyə gələn turistlərin sayının azalmasına gətirib çıxarır və respublikaya daxil olan vəsaitlərin həcmini azaldır. Ona görə də, bu sahədə ciddi dönüş yaradılmalıdır.

Ölkəmizdə turizm qiymətlərinin ən azı qonşu ölkələrdəki səviyyəyə düşməsi üçün bu sektorda çalışan sahibkarlara yaradılan süni əngəllər aradan qaldırılmalı, onlara dövlət səviyyəsində güzəştlər edilməlidir. Bu sektora güzəştlərin edilməsi vacibdir. Turizm sektorunda fəaliyyət göstərən şirkətlərdən 18 faiz həcmində əlavə dəyər vergisinin tutulması onların xərcini daha da artırır. Bu vergi növündə güzəştlərin tətbiqi məqbul olardı.

### Turizm sektorunun inkişafı üçün əsas şərtlər nədir?

Mütəxəssislərin fikrincə, turizmin inkişafı üçün 3 şərtin olması vacibdir;

1. Zəruri infratruktur və cəlbedici məkanların olması. (Azərbacanda maraqlı, ekzotik yerlər var. İnfratrukturun yaxşılaşdırılması məsələləri də getdikcə həllini tapır.)

2. Yüksək xidmət

3. Münasib (ucuz) qiymət.

Məhz sonuncu 2 şərt turistlərin cəlb edilməsində xüsusi rol oynayır.

Qonşu ölkələrin bizdən dəfələrlə aşağı qiymətə və yüksək xidmətlə turistləri cəlb etdiyi bir şəraitdə biz necə turist cəlb edə bilərik məsələsinə gəldikdə, deyək ki, xarici turistlər üçün Azərbaycanda qiymətlər münasib edilsə belə, xidmətin aşağı olması buna mənfi təsir göstərər. Təsəvvür edin, hər il 40 milyon nəfər Rusiya turisti xarici ölkələrdə istirahət üçün 40 milyard dollara yaxın vəsait xərcləyir. Rusların az bir hissəsini cəlb edə bilsək, xeyli qazancımız olar. Məsələn, bu 40 milyon nəfərin cəmi 1 milyonunu cəlb edə bilsək, bu 1 milyard dollar vəsait edir.

İranlılar üçün də Azərbaycan cəlbedicidir. Onları narahat edən yalnız bizdəki baha qiymətlərdir. Əgər qiymətlərdə ucuzluq olsa, azı 1-2 milyon iranlı turisti cəlb etmək asan olar. Problemlərin biri də budur ki, əksər ölkələrdən fərlqi olaraq, bizdə əsasən bahalı turizm müəssisələri, 4-5 uludzlu otellər tikilir. Hətta turizmdə məşhur olmayan regionlarda belə bahalı otellər və turizm obyektləri tikilir. Bundansa, ucuz mehmanxanalar tikilməlidir ki insanların cibinə uyğun olsun. Unutmaq olmaz ki, turistlərin böyük hissəsi heç də milyonçu deyil, orta statistik vətəndaşlardır ki, onlara 5 ulduzlu otel vacib deyil.

Azərbaycanda ekoturizmin, qış turizminin və kənd turizminin də inkişafı üçün böyük potensial var. Bu sahədə düngün yanaşma olsa, milyonlarla xarici turist əclb edə bilərik, üstəlik yüz minlərlə yerli turist də öz ölkəmizdə istirahət edər. Nəticədə ölkəmiz bu sektordan milyardlarla vəsait əldə edə bilər. Yüz minlərlə yeni iş yerləri yaranar, iqtisadi aktivlik artar.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
26 may
2022-ci il

# İnsanı intihara sövq edən hallar AÇIQLANDI



**“Mən hər zaman qeyd edirəm ki, intihar edən insan ölmək istədiyi üçün bu addımı atmır, əksinə yaşaya bilmədiyi və ya yaşamaq istəmədiyi üçün edir. Burada çox böyük fərq var”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova bildirib.**

Onun sözlərinə görə, həmin insan üçün yaşamaq o qədər ağır gəlir ki, artıq həyatını sonlandırmaq istəyir: ”İntihar etmək istəyən insan müxtəlif səbəblərdən bu yolu seçə bilər. Əsasən intihara meyilli olan insanlar psixoloji cəhətdən gərgin vəziyyətdə olur və özünü tənha, güvənsiz hiss edir. Yeniyetmələr arasında da bu hallar yaşansa da, yaşca böyük olan insanlarda intihar halları daha çox rast gəlinir. Həmin insanlar psixoloji xəstəliklər istisna olmaq şərti ilə maddi sıxıntılardan, boşanmalardan, şantajlardan və s. digər səbəblərdən də bu qərara gəlirlər. Lakin daha çox şəxsi qorxular yeniyetmələrdə müşahidə olunur. Misal olaraq ”imtahandan kəsilsəm camahat nə deyər”, ”sevgilimdən ayrıldım” və s. Burada çox zaman sual yaranır ki, necə bilmək olar ki, hər hansısa bir insan da intihar edəcək? Bəlkə də ilk baxdığımız zaman yanımızdakı şəxsin depressiyada olduğunu bilə bilmərik. Amma unutmayaq ki, intihara cəhd edən və bu haqda düşünən insanların böyük bir qisminin dərdi yaxınları tərəfindən qəbul edilməməyidir. Yəni biz öz yaxınlarımıza şüuraltı olaraq o mesajı yollasaq ki, hər hansısa bir problem baş verildiyi zaman mən səni buraxaram artıq həmin insan da intihara meyillik yarana bilər. Bunun üçün də biz yaxınımızda olan insana o güvəni ötürə bilməliyik ki, mən sənin hər zaman yanındayam. Təbii ki, heç bir halda ölməyə dəyməz və həyat bütün hallarda gözəldir. Uşaqların və gənclərin üzərinə bu qədər məsuliyyət qoymasaq bu kimi hallar yaranmaz. Misal olaraq borcun varsa, ayrılmısansa və yaxud imtahandan kəsilmisənsə bu dünyanın sonu deyil. Yəni hər zaman bir çıxış yolu vardır. Psixologiyası sağlam olan, sevilən insanlar intihar haqqında düşünmürlər. Bütün insanlara tövsiyə edərdim ki, belə bir fikir ağlına gələrsə və yaxınlarına güvənmirsə bir peşəkara müraciət etsinlər. Bəzən insanın ən böyük uğuru həyatda qala bilməkdir. Bu uğuru da bilərək özümüzü məhrum etməyək. Çünki həqiqətən də yaşamağı seçmək və çətinliyin öhdəsindən gəlmək artıq uğurun özü deməkdir”.

***Banuçiçək Hüseynli***

# Laportadan Messi və Neymar üçün şok açıqlama!



***Barselona"nın prezidenti Joan Laporta klubun hazırda PSJ-də çıxış edən sabiq futbolçusu Neymar haqqında danışıb. Qol.az xəbər verir ki, funksioner braziliyalı forvardın oyununu bəyəndiyini deyib. Lakin Laporta PSJ-də oynamağı köləliklə müqayisə edib.***

“Neymarı kim sevməz? O, müstəsna oyunçudur. Neymarın PSJ ilə daha 4-5 illik müqaviləsi var. PSJ kimi klublarla müqavilə imzalayan oyunçular hamısı köləliyə razılaşıblar. Pul üçün... Əgər sabiq futbolçularımız ”Barsa”ya qayıtmaq istəyirsə, deməli aşağı məvacibə razılaşmalıdır. Bu cür transferləri ödəyə bilmərik. Amma vəsaitimiz olsa belə, bunu etməzdik”.

Qeyd edək ki, Neymar 207-ci ildə 222 milyon avro qarşılığında PSJ-yə transfer olunub. Həmçinin Lionel Messi də ötən il uzun müddətli danışıqlardan onra ”Barselona” ilə müqavilə şərtlərində razılaşa bilmədiyi üçün azad agent kimi Paris təmsilçisinə keçib.

# Dünyanın ən qısaboylu yeniyetməsi tapılıb?



Nepal sakini 18 yaşlı Dor Bahadur Kapagi dünyanın ən balaca yeniyetməsi kimi Ginnesin Rekordlar Kitabına düşüb. SİA-nın əldə etdiyi məlumata görə, bu barədə ”Daily Mail” yazır.

Qeyd edək ki, nepallının boyu cəmi 73 santimetrdir. Gənc oğlan xüsusi olaraq Nepalın paytaxtına gəlib ki, münsiflər heyəti və ölkə hökuməti ona rekordu təsdiq edən sertifikat təqdim etsinlər. Təntənəli mərasimdən sonra fotoqraflar Dora üçün fotosessiya təşkil ediblər. Maraqlıdır ki, Dor Kapagi, sən demə, Yer kürəsinin ən qısa insanı deyilmiş. Bu titul hazırda kolumbiyalı Edvard Hernandezə məxsusdur. Bildirək ki, həmən adamın boyu 68 santimetrə yaxında donub. Qeyd edək ki, kolumbiyalı 2010-cu ildə.Ginnesin Rekordlar Kitabına düşüb.

***Nazlı Almuradova***

# Həkim açıqladı: Mobil telefonlar bu xəstəliklərə yol açır!

***Mobil telefonlar həyatımızın ayrılmaz aksesuarına çevrilsə də, mütəxəssislər onunla ehtiyatlı davranmağa çağırırlar. Aparılan tədqiqatlar nəticəsində məlum olub ki, mobil telefonlar insan orqanizmini müəyyən dozada şüalandırır və əksər vaxtlar bunun fəsadları özünü göstərir. Ümumiyyətlə, radiasiya ionlaşdırıcı və ionlaşmayan növlərə bölünür.***

Onlardan ən təhlükəlisi rentgen, ultrabənövşəyi və qamma şüalarıdır. Cihazı ələ götürən kimi orqanizm radiasiyaya məruz qalır, eyni zamanda gözlər və yaddaş tədricən zəifləyir. Bakıdakı 20 nömrəli poliklinikanın həkim-terapevti Solmaz Musayeva açıqlayıb ki, televizor və telefona çox baxanlarda uzağı zəif görmə əmələ gəlir. Həkimin bildirdiyinə görə, mobil telefon və planşetlərin əks təsiri illər keçəndən sonra özünü göstərir. Boyun və baş ağrıları, bel və onurğa əyrilikləri əmələ gəlir:

”Yuxuya gedərkən əllərində telefon olanlar üçqat şüalanmaya məruz qalırlar. Həkim-terapevt onu da qeyd edib ki, mobil telefondan mümkün olduğu qədər uzaqda durmaq lazımdır: ”Xüsusilə yuxuya gedərkən telefon yataq otağından uzaq saxlanılmalıdır, çünki radiasiya beyinə çox mənfi təsir edir, həmçinin onun təsiri özünü yuxu pozuntuları, yorğunluq və halsızlıq şəklində də büruzə verir.

Son 20 ildə müxtəlif ölkələrdə tədqiqatçılar həmin problemlə əlaqədar 29 mindən çox elmi nəşr buraxıb, 1300 təcrübə, 300 epidemioloji tədqiqat aparıblar. Nəticədə məlum olub ki, smartfon ilk baxışda hiss olunmayan, lakin uzun müddətli narahatlıqlar yaradan digər mənfi təsirlərlə zərər verə bilər. Yatarkən ekrandan çıxan mavi işıq dalğaları bədəndəki melotonin istehsalını azaldır. Melotonin isə bioloji hormondur və bir növ axşam yuxusunun xəbərvericisidir. Ekrandakı işıq isə beyinə ötürdüyü siqnallar vasitəsilə yuxu hormonunun miqdarını azaldır.”



**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220